HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 27 (869) ■ 19 iyul 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# 2017-ci il Azərbaycanda iqtisadi inkişaf ili olmalıdır

**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

İclası giriş sözü ilə açan dövlətimizin başçısı bildirib ki, Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz xeyli güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib: «Bölgədə və dünyada narahatedici məqamlar kifayət qədər çoxdur, müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar davam edir. Azərbaycan isə uğurla inkişaf edir. Azərbaycanda sabitlik möhkəmlənir. Sabitliyin mənbəyi Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir».

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkədə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir: «Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı öz gələcəyini təhlükəsizlik, əmin-amanlıq şəraitində qurur. Bu ilin altı ayında bizim beynəlxalq əlaqələrimiz daha da fəallaşıb. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Dostlarımızın sayı artır və beynəlxalq təşkilatlarda da bizim fəaliyyətimiz çox müsbətdir».

Bu il Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirildiyini deyən dövlətimizin başçısı bütün bunların, əslində, ölkəyə olan münasibəti, hörməti əks etdirdiyini diqqətə çatdırıb: «Azərbaycanda keçirilən mötəbər tədbirlər ən yüksək səviyyəli tədbirlərdir. Onların arasında



əsas tədbirləri qeyd etmək istərdim. Bu il Bakıda V Qlobal Forum keçirilibdir. Bu, artıq dünya miqyasında çox dəyərli, səviyyəli bir tədbirdir. Əgər Davosda daha çox iqtisadi, Münxendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda daha çox siyasi və eyni zamanda, bütün digər məsələlər müzakirə edilir. Bu il IV Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bu da bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl ilk dəfə keçirilmiş tədbirdir. Builki tədbirdə Azərbaycanla bərabər dünyanın altı aparıcı beynəlxalq təşkilatı Forumun təşkilatçısı kimi çıxış etmişdir. Bu il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu da qlobal tədbirdir. Biz həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını ən yüksək səviyyədə keçirmişik, minlərlə idmançı, qonaq bizim gözəl Bakı ilə tanış olub, şəhərimizə, ölkəmizə heyran qalıb. Bizim təşkilatçılıq qabiliyyətimiz də ən yüksək səviyyədədir».

**Davamı 2-ci səhifədə**

# Azərbaycan Prezidenti İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Latviya Respublikasına rəsmi səfər edib. Dövlətimizin başçısını Latviya Prezidenti Ofisinin rəhbəri Arnis Salnajs və digər rəsmi şəxslər qarşılayıblar.**



İyulun 17-də Prezident İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, bu səfərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Həmin gün nümayəndə heyətlərinin iştirakı ilə prezidentlərin geniş tərkibdə görüşü olub. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində, o cümlədən Şərq-Qərb, Şimal-Cənub dəhlizlərində, Asiya ilə Avropa arasında yükdaşımalarda önəmli rolu qeyd edilib. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat əməkdaşlığı sahəsində gördüyü işlərdən danışıb. Söhbət zamanı Azərbaycan-Latviya münasibətlərinin Azərbaycan-Avropa İttifaqı münasibətləri çərçivəsində önəmi qeyd edilib. Hökumətlərarası Komissiyanın fəaliyyəti müzakirə olunub, ticarət dövriyyəsinin artırılması üçün imkanların araşdırılması, ixrac-idxal potensialının müəyyənləşdirilməsi, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq məsələlərindən danışılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Hər iki prezident «Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə»ni imzalayıblar. «Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Latviya Respublikasının İqtisadiyyat Nazirliyi arasında tikintidə təhlükəsizliyə dövlət nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş»i, «Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i də imzalanıb.

İmzalanma mərasimi başa çatdıqdan sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Prezident Raymonds Veyonis bildirib ki, Azərbaycanla Latviya arasında imzalanan Birgə Bəyannamə strateji tərəfdaşlığın və ikitərəfli münasibətlərin genişləndirilməsinə müsbət təsir göstərəcək: «Əminəm ki, bu gün imzalanan digər sənədlər - təhsil, tikintiyə nəzarət və digər sahələrdə olan razılaşmalar bizim ikitərəfli əlaqələrimizi daha da gücləndirəcək. Bu gün biznes forum da keçiriləcək. Həmçinin iyun ayında bizim hökumətlərarası komissiyanın iclası keçirilib. Mənə elə gəlir ki, bunlar bizim həm iqtisadi, həm qarşılıqlı ticari imkanlarımızı genişləndirəcək. Beləliklə, bizim Azərbaycan ilə əməkdaşlığımız nəqliyyat, xüsusən də beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizi baxımından daha sıx olacaq».

Prezident Raymonds Veyonis bildirib ki, Latviya Azərbaycanı, onun suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Dağlıq Qarabağ münaqişəsi yalnız sülh və danışıqlar yolu ilə həll oluna bilər və bu, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır. Qeyd edib ki, Latviya Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin gücləndirilməsinə hər zaman öz dəstəyini verib və münasibətlərin daha da inkişafına öz töhfəsini verməkdə davam edəcək.

Bəyanatla çıxış edən Prezident İlham Əliyev bildirib ki, tərəflər bütün sahələrdə əməkdaşlıqda maraqlıdır və iqtisadi sahəyə xüsusi diqqət göstərilir: «Bizim konkret təkliflərimiz var ki, hansı məhsulları Latviyaya ixrac edə və hansı məhsulları Latviyadan idxal edə bilərik. Bizim iqlim şəraitimiz elədir ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır. Odur ki, biz istehsal etdiyimiz bir çox məhsulları Latviyaya ixrac edə bilərik və əksinə. Ona görə qarşılıqlı ticarət əlaqələrinin inkişafı üçün çox gözəl imkanlar var. O cümlədən biz turizm sahəsində əməkdaşlığa da toxunduq və belə qərara gəlirik ki, Riqa-Bakı reysləri də müntəzəm olaraq həyata keçirilməlidir».

Azərbaycanın dövlət başçısı qeyd edib ki, təhsil və humanitar sahələrdə əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Nəqliyyat sahəsində də çox ümidverici əməkdaşlıq imkanlar mövcuddur: «Azərbaycan hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı çox ciddi fəaliyyət göstərir və bu məqsədlər üçün çox böyük maliyyə vəsaiti ayırıb. Latviya bu dəhlizin üzərində yerləşən ölkələrdən biri kimi, əlbəttə, bizimlə bərabər işləyir. Biz qərara gəldik ki, növbəti mərhələdə müvafiq qurumlar artıq öz aralarında məsləhətləşmələrə başlasınlar». Prezident İlham Əliyev Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra edildiyini və Latviyanın bu layidə çox böyük rolu olduğunu da xatırladıb. Sonra dövlət başçıları birlikdə Riqa şəhərindəki «Azadlıq» abidəsini ziyarət ediblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev Latviya Respublikasının Baş naziri Maris Kuçinskis və Latviya Respublikası Seyminin sədri İnara Murnietse ilə də görüşüb. Hər iki görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyi, parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərə böyük töhfə verdiyini bildirilib. Latviya Seyminin sədri Avropa İttifaqında Azərbaycanı daim dəstəklədiklərini bildirib. Latviyanın mövqeyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməsindən ibarət olduğunu deyən İnara Murnietse cəbhə xəttində iki azərbaycanlı mülki şəxsin - nənə və nəvənin qətli ilə nəticələnən son hadisədən təəssüfləndiyini bildirib və qeyd edib ki, cəbhə bölgəsində bu cür vəhşilik hallarının davam etməsi təəssüf doğurur.

Həmin gün Riqada Latviya-Azərbaycan biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonis biznes forumun açılış mərasimində iştirak ediblər və nitq söyləyiblər. Bildirilib ki, Latviya ilə Azərbaycan arasında güclü iqtisadi əməkdaşlıq inkişaf etdirilir. Amma hələ qarşıda daha çox iş var. Tərəflər mövcud potensialdan istifadə edərək qarşılıqlı iqtisadi-ticari əlaqələri, sərmayə qoyuluşlarını daha da artırmalıdırlar. Öz işini müzakirələrlə davam etdirən forumda ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair təkliflər irəli sürülüb.

Sonra Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib, dövlət başçıları ziyafətdə çıxış ediblər.

## Bakı – gözəl parklar, yaşıllıqlar şəhəri

İyulun 15-də Prezident İlham Əliyev paytaxtın Yasamal rayonunun Mətbuat prospektində yeni salınan parkda yaradılan şəraitlə tanış olub. Parkda görülən işlər barədə Dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, antisanitariya mənbəyinə çevrilən ərazi tam təmizlənərək müasir layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb. Burada çoxillik ağaclar əkilib, yaşıllıqlar salınıb. Parkda müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb. Ətrafdakı yaşayış binaları ilə əlaqə qurulması, eləcə də insanların buraya rahat gediş-gəlişini təmin etmək üçün parkın yuxarı hissəsində yeni pilləkənlər tikilib və əlil arabaları üçün xüsusi yol salınıb. Əhalinin mədəni istirahətini təmin etmək məqsədilə çoxlu sayda oturacaq və parkın ərazisinin bir hissəsində idman qurğuları quraşdırılıb. Bundan əlavə, avtonəqliyyat vasitəsilə istirahət parkına gələn əhalinin rahatlığı üçün yeni parklanma sahəsi yaradılıb.

Parkla tanışlıqdan sonra Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin professor və müəllim heyəti üçün tikilən binanın və ətrafdakı evlərin sakinləri ilə görüşüb. Bildirib ki, son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılıb. Həm şəhərin mərkəzində, həm də digər ərazilərdə yeni ictimai yerlər sakinlərin ixtiyarına verilir: «Şəhərimizin abadlaşması istiqamətində görülən bütün işlər göz qabağındadır. Mən bir daha qeyd etmək istəyirəm ki, indi Bakı gözəl parklar şəhərinə çevrilibdir».

Dövlətimizin başçısı vurğulayıb ki, paytaxtdakı mövcud parkların demək olar ki, hamısı son illər ərzində əsaslı şəkildə bərpa edilib, yeni istirahət zonaları yaradılıb: «Bizim ən böyük parkımız dənizkənarı bulvardır, onun uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırılıb. Burada indi idman, incəsənət şəhərcikləri, ictimai yerlər yaradılıb. Diqqətçəkən digər layihələr arasında Heydər Əliyev Sarayının arxasındakı yeri də qeyd edərdim. Orada gözəl park yaradılıb. Dövlət Dram Teatrının arxasında yeni park salınır. «Sovetski» adlanan ərazidə həm yol infrastrukturu, həm ictimai yerlər, gözəl yaşıllıqlar salınacaqdır».

Prezident İlham Əliyev bildirib ki, görülən işlər bir daha onu göstərir ki, vətəndaşların rahat istirahəti üçün şəhərimizdə çox böyük tədbirlər görülür. Parkların salınması baxımından Bakı şəhəri bu gün dünyada birinci yerdədir. Əgər harada söküntü gedirsə, o yerdə mütləq ictimai guşələr, parklar yaradılır, yeni geniş yollar salınır ki, tıxaclar azalsın.

## BU NÖMRƏMİZDƏ

ABŞ NÜMAYƏNDƏLƏRİ VERGİLƏR NAZİRLİYİNDƏ... 2

MODERN İQTİSADİYYAT İNSAN KAPİTALININ İNKİŞAFINA SÖYKƏNİR 3

REGİONLARDA MƏŞĞULLUQ SƏVİYYƏSİNİN ARTMASI VERGİ DAXİLOLMALARININ DA ARTMASINA SƏBƏB OLUR 4

VERGİ İNZİBATÇILIĞI İLƏ BAĞLI QAYDALAR YENİ REDAKSİYADA... 5

# 2017-ci il Azərbaycanda iqtisadi inkişaf ili olmalıdır

Əvvəli 1-ci səhifədə

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırkı vəziyyətə toxunan Prezident İlham Əliyev bildirib ki, bu ilin birinci yarısında danışıqlar istiqamətində heç bir nəticə əldə olunmayıb: «Bu il qondarma separatçı rejim Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda növbəti qondarma, qanunsuz, dırnaqarası referendum keçirmişdir. Bu «referendum»un keçirilməsi əslində onların böyük səhvidir, daha doğrusu, axmaqlığıdır. Onların bir qədər ağlı olsaydı, heç vaxt buna getməzdilər. Çünki bəri başdan bəlli idi ki, dünya birliyi bu qondarma tədbiri tanımayacaq. Belə də oldu. Minsk qrupu bəyanat verdi, onun həmsədrləri - Amerika, Fransa, Rusiya «referendum»u tanımadılar. Avropa İttifaqı referendumu tanımayıb. Qonşu ölkələr - İran, Gürcüstan «referendum»u tanımayıb. Digər ölkələr də oxşar bəyanatlarla çıxış etdilər. Bu qondarma «referendum»un tanınmaması Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyir. Bütün dünya və münaqişənin həlli ilə bilavasitə məşğul olan ölkələr bu münasibətləri ilə bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həqiqətdir, bu, tarixi həqiqətdir və əlbəttə ki, bu həqiqət bir daha qeyd olundu. Bu, Ermənistanın növbəti biabırçılığı idi».

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan həmişə olduğu kimi, ötən ay da növbəti hərbi təxribat törətdi: «Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq. Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir».



Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkədə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan dövləti öz hərbi potensialının daha da gücləndirilməsi istiqamətində ciddi addımlar atır: yeni silahlar, ən müasir texnika alınır: «Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir».

Məcburi köçkünlərin problemlərinin həlli istiqamətində görülən işlərdən danışan Prezident İlham Əliyev bildirib ki, son illər yüzə yaxın qəsəbə salınmışdır, ancaq onların arasında bu il öz sakinlərini yenidən qoynuna alan Cocuq Mərcanlı qəsəbəsi xüsusi yer tutur: «Bu, tarixi hadisədir. Bu, bizim şanlı tariximizə qızıl hərflərlə yazılan hadisədir. Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Orada 50 ev, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilib, yol çəkilib, bütün infrastruktur yaradılıb. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrılmışdır. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır. Digər layihələr icra edilir. Tərtər rayonunda böyük şəhərcik salınır. Sumqayıt və Bakı şəhərlərində həm yeni şəhərciklər tikilir, həm köçkünlər üçün mənzillər alınır və onlara verilir. Masazırda, Sumqayıtda, Qaradağ rayonunda belə təşəbbüslər irəli sürülür. Onların arasında Qaradağ layihəsini xüsusilə qeyd etmək istərdim. Çünki bu, bir yenilikdir, yeni təşəbbüsdür. Bu, özəl sektor tərəfindən inşa edilən böyük şəhərcikdir. Orada min köçkün ailəsi məskunlaşacaq və bu, çox gözəl nümunədir».

Azərbaycan Prezidenti çıxışında ölkədə sahibkarlara yaradılmış münbit şəraitdən danışıb, qeyd edib ki, bu gün respublikamızda bizneslə məşğul olan minlərlə sahibkar öz fəaliyyətini genişləndirir: «Bizim sahibkarlarımız böyük imkanlara malikdirlər. Sahibkarların sosial məsuliyyəti də yüksək səviyyədə olmalıdır. Bu şəraiti onlar üçün biz yaratmışıq. Çünki indi Azərbaycanda sabitlik, sürətli inkişaf olmasaydı, bizim sahibkarlar bu qədər inkişaf edə bilməzdilər. Eyni zamanda, dövlət onlara güzəştli şərtlərlə kreditlər verir, onların məsələləri həll olunur. Mən sahibkarlarla dəfələrlə görüşmüşəm. Hər il bir neçə dəfə görüşürəm və tam dəstək göstərilir. Onlar da öz növbəsində sosial məsuliyyəti dərk etməlidirlər. Ona görə, Qaradağ rayonunda sahibkarlar tərəfindən öz vəsaitləri hesabına 1000 mənzillik şəhərciyin tikilməsi çox yaxşı təşəbbüsdür. Mən bunu bəyənirəm, alqışlayıram. Bu, bütün sahibkarlara nümunə olmalıdır».

Qeyri-neft sektorunun uğurlu inkişafına diqqət çəkən dövlətimizin başçısı bu sahədə 1,7, qeyri-neft sənayesində 4,4 faiz iqtisadi artımın əldə olunduğunu, bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu xatırladıb. Bildirib ki, ötən dövrdə valyuta ehtiyatlarımız artaraq 40,6 milyard dollar təşkil edir: «İlin əvvəlindən bu günə qədər valyuta ehtiyatlarımız təxminən 3 milyard dollar artıb. Baxın, neftin qiyməti kəskin şəkildə düşüb. Sonra isə müəyyən dərəcədə qalxıb. Yenə də düşmə ehtimalı var. Amma bizim valyuta ehtiyatlarımız artır. Nəyə görə? Düşünülmüş siyasətə görə. Ona görə ki, biz heç vaxt populist işlərlə məşğul olmamışıq. Biz hər zaman ölkəmizin uzunmüddətli inkişafı ilə məşğul olmuşuq. Biz həm qənaət etdik, həm islahatlar apardıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə vəsait ayırdıq. Əlbəttə ki, biz idxalı azaltmışıq, ixracı isə artırmışıq. Büdcə ilə bağlı heç bir problem yoxdur. Ona görə, Neft Fondundan büdcəyə transferlər də azaldı».

Ötən 6 ayda ölkədə 122 min yeni iş yerinin açıldığını deyən Prezident İlham Əliyev onların 101 mininin daimi iş yeri olduğunu bildirib: «Xarici ticarət dövriyyəsinin göstəriciləri də müsbətdir. Bu ilin altı ayında ixrac 36 faiz artıb. Burada da ən önəmlisi qeyri-neft ixracıdır. Qeyri-neft ixracı altı ayda 27 faiz artıb. Bax, budur gördüyümüz işlərin nəticələri. Bununla bərabər, idxal 15 faiz azalıbdır. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir. Kənd təsərrüfatı da 2,2 faiz artıbdır».

Sonra ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, «Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə öz sahələri üzrə görülən işlər barədə məlumat veriblər.

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, 2017-ci il Azərbaycanda iqtisadi inkişaf ili olmalıdır: «Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili kimi yadda qalmışdır. Bu il isə inkişaf ili olacaq. Əminəm ki, bundan sonrakı illərdə də Azərbaycan öz iqtisadi potensialını daha da gücləndirəcək. Uğurlu iqtisadi islahatları və iqtisadi siyasətimizi davam etdirmək üçün əlbəttə ki, maliyyə və iqtisadi sabitlik olmalıdır».

Dövlətimizin başçısı istehlak qiymətlərinə nəzarət, süni qiymət artımına qarşı mübarizə tədbirləri, qeyri-neft sektorunun inkişafı, sənaye və aqrar parkların yaradılması, kənd təsərrüfatında davam etdirilən layihələr barədə danışaraq bu istiqamətdə görüləsi digər zəruri tədbirlərin icrası üçün tapşırıqlarını verib. Qeyd edib ki, infrastruktur layihələrinin icrası davam etdirilməli, inşaat sektorunda müşahidə edilən canlanma daha da artmalıdır. Bölgələrə özəl sərmayələrin qoyuluşu üçün mərkəzi icra orqanları ilə yanaşı, yerli icra orqanlarının da fəal olması vacibdir. Prezident İlham Əliyev Azərbaycanın ixrac potensialının gücləndirilməsi sahəsində sahibkarlara öz fəallıqlarını artırmağı tövsiyə edib.

# ABŞ nümayəndələri Vergilər Nazirliyində...

**İyulun 18-də Vergilər Nazirliyində Amerika Birləşmiş Ştatları (ABŞ) səfirliyinin nümayəndələri ilə görüş keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev qonaqları salamlayaraq Azərbaycanda mövcud iqtisadi vəziyyət və inkişaf göstəriciləri, vergi sistemində aparılan modernləşmə prosesi, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində əldə olunan nailiyyətlər barədə məlumat verib.**

Nazir müavini bildirib ki, Vergilər Nazirliyi ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmi çərçivəsində xarici ölkələrin, o cümlədən ABŞ-ın vergi orqanları ilə əməkdaşlığı genişləndirir.



Azərbaycanla iqtisadi münasibətlərin uğurla davam etdiyini bildirən qonaqlar bu sahədə əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını diqqətə çatdırıblar

İ.Vəliyev Amerika Ticarət Palatası (AmCham) ilə birlikdə vergi konfranslarının təşkil olunduğunu qeyd edərək, bu görüşlərin vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsində müstəsna rol oynadığını diqqətə çatdırıb. Nazir müavini Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamına toxunaraq vurğulayıb ki, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası zamanı AmCham-la birlikdə keçirilmiş görüşlərdə səsləndirilən tövsiyələr də nəzərə alınıb. Qeyd edib ki, ABŞ-la əməkdaşlığın davamı olaraq, 2015-ci ildən «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş» qüvvəyə minib. Bu sazişə əsasən, tərəflərin vergi ödəyicilərinin bank hesabları, həmin hesablara aid əməliyyatlar barədə məlumatların mübadiləsi həyata keçirilir.

Qonaqlara «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə müəyyən olunmuş hədəflər, onların mahiyyəti, habelə bilavasitə Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı olan istiqamətlər barədə də məlumat verilib. Qeyd edilib ki, nazirliyin əsas icraçı olduğu sahələrdən biri əlverişli biznes mühitinin inkişaf etdirilməsi hədəfi üzrə səmərəli vergi sisteminin təşviq edilməsidir. Hazırda Azərbaycanda ABŞ-a məxsus 300-ə yaxın müəssisə və təşkilat fəaliyyət göstərir və investisiya mühitinin daha da əlverişli vəziyyətə çatdırılması bu müəssisələrin sayının artmasına təkan verəcək.

ABŞ-ın missiya rəhbərinin müavini Uilyam Gill Azərbaycanın vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu vurğulayıb. Strateji yol xəritələrini uğurlu təşəbbüs kimi qiymətləndirən qonaq vergi güzəştlərinin təyin edilməsi, investisiya mühitinin yaxşılaşdırılması, vergi rejiminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məsələlərinin doğru hədəflər olduğunu deyib. Azərbaycanla iqtisadi münasibətlərin uğurla davam etdiyini bildirən U.Gill bu sahədə əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə ABŞ şirkətlərinin Azərbaycandakı fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub və bir sıra suallar cavablandırılıb.

# Səmərəli vergi siyasəti ümumi inkişafın təməl prinsipidir

**2017-ci ilin yanvar-iyun ayları ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3 milyard 352 milyon 375,6 min manat məbləğində vəsait daxil olub. Nazirlik birinci yarımillik üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 102,5% əməl edib.**

Dövlət başçısının müəyyən etdiyi yeni iqtisadi çağırışlara uyğun olaraq vergiləri artırmadan vergitutma bazasının genişləndirilməsi, sahibkarlar üçün əlverişli biznes və vergi mühitinin formalaşdırılması qarşıya məqsəd qoyulub. Bununla bağlı olaraq, sahibkarların geniş fəaliyyətinin təmin edilməsi üçün vergi sistemində yeni islahatlar həyata keçirilib. 2017-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük bir qismi vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır və bu amillər azad biznesin inkişafı, sahibkarların geniş fəaliyyəti üçün daha əlverişli şərait yaradılmasına dərin zəmin yaradıb.

Bütün bu amillər cari ilin birinci yarısında vergi ödəyicilərinin sayının artmasına, yeni istehsal, xidmət sahələrinin yaradılmasına mühüm təsir göstərib, nəticədə dövlət büdcəsinə vergi daxilolmalarının nəzərdə tutulan proqnoza uyğun tam həcmdə ödənilməsi mümkün olub. 2017-ci ilin ötən dövrü ərzində vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsinin yüksəldilməsi istiqamətində görülən tədbirlər də öz bəhrəsini verib. Cari ilin ilk yarısında vergi ödəyiciləri tərəfindən daxil olan vəsaitlərin 90%-i könüllü əməletmə və vergi ödəyicilərinə göstərilən xidmətlər sayəsində mümkün olub. Əlamətdar haldır ki, daxilolmalarda neft sektorunun payı qeyri-neft sektoru ilə müqayisədə xeyli aşağı olub. Hesabat dövründə qeyri-neft sektorunda 1,7% artım, eləcə də qeyri-neft sənayesində 4,4% inkişaf ölkə iqtisadiyyatında ümumi iqtisadi yüksəlişə səbəb olub. Qeyri-neft sektorunu əhatə edən 200-dən artıq yeni müəssisənin yaradılması bu sahədən daxil olan vergilərin artmasına rəvac verib.

Azərbaycan hökumətinin həyata keçirdiyi səmərəli iqtisadi siyasətə uyğun olaraq, son illər büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi qeyri-neft gəlirlərinin qeyri-neft ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisinin artmasına gətirib çıxarıb. Fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasının genişləndirilməsi, vergi daxilolmalarının yığım əmsalının artırılması, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın artması qeyri-neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarının artımında mühüm rol oynamaqdadır. Qeyri-neft daxilolmalarının həcminin artmasında vergidən yayınmaların qarşısının alınması məqsədilə nağd hesablaşmaların məhdudlaşdırılması və transfert qiymətlərinin tətbiqinə nəzarətin gücləndirilməsi, ƏDV-nin vergitutma bazasının genişləndirilməsi, vergi uçotunun şəffaflaşdırılması, qeyri-rəsmi məşğulluğun və qanunsuz sahibkarlığın aradan qaldırılması, vergi intizamının gücləndirilməsi və digər tədbirlər öz mühüm təsirini göstərib.

«Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi»ndə başlıca hədəflərdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahədən dövlət büdcəsinə daxil olan vergilərin həcminin artırılmasından ibarətdir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin və aparılan vergi siyasətinin əsas məqsədlərindən biri sahibkarların fəaliyyətinin genişləndirilməsi, yeni istehsal, xidmət sahələrinin yaradılması və nəticədə onların gəlirlərinin artmasından ibarətdir. Vergi yükünün azaldılması, tətbiq olunan vergi güzəştləri və vergidən azadolmalar, dövlətin verdiyi digər dəstək tədbirləri də qeyri-neft sektorunda çalışan sahibkarları təşviq etmək məqsədi daşıyır. Qarşıya qoyulan hədəflərə nail olmaq üçün iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması vasitəsilə vergi siyasətinin təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdiriləcək.




**Elbrus CƏFƏRLİ**

# Modern iqtisadiyyat insan kapitalının inkişafına söykənir



Müsahibimiz
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Tədris Mərkəzinin rəisi
Əli Həsənovdur

***- Əli müəllim, ölkəmizdə insan kapitalının inkişafı ilə bağlı hansı islahatlar həyata keçirilir?***

- Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda müasir, modern iqtisadiyyatın ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşmasına və inkişafına xüsusi diqqət göstərilir. İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Biz də bunu nəzərə almalıyıq. Bu mənada, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar hər bir Azərbaycan vətəndaşının rifahının yüksəldilməsinə yönəlib.

Ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar siyasəti deməyə əsas verir ki, əldə olunan gəlirlərin böyük hissəsi təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiqinə yönəldilsin. İnsan kapitalının inkişafı Azərbaycanda həyata keçirilən dövlət proqramlarının əsas prioritetlərindən biridir. Qeyd edək ki, Avrasiya İnsan İnkişafı Fondunun dünya ölkələrinin inkişafında insan amilinə dair hazırladığı hesabatda qeyd olunur ki, iqtisadiyyatda insan kapitalı insana yönələn investisiyanın həcmi ilə ölçülür. Dünyada iqtisadi artımın 16 faizi fiziki kapital, 20 faizi təbii ehtiyatlar, 64 faizi isə insan kapitalı hesabına əldə olunub. İnsan kapitalına yönələn xərclərin artması nəticədə həmin ölkənin gələcəkdə daha da inkişaf etməsinə səbəb olur.

Bir neçə il bundan əvvəl keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemi yaratmaq məqsədilə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın tətbiqi barədə sərəncam imzalanıb. Sözügedən sənəddə insan kapitalının inkişafının iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli şəkildə faydalanması prosesində ən mühüm şərtlərdən olan təhsil sisteminin başlıca vəzifələri əksini tapıb. Təhsil sahəsinə diqqətin artırılması ölkədə insan resurslarının inkişafı və iqtisadiyyatın, o cümlədən regionların yüksək ixtisaslı kadrlarla təmin olunması baxımından dayanıqlı iqtisadi inkişafa xidmət edə biləcək təqdirəlayiq haldır. 2016-cı ildə büdcədən təhsilə ayrılan xərclərin həcmi 2010-cu illə müqayisədə 38 faiz artıb. 2016-cı il dövlət büdcəsindən məktəbəqədər və ibtidai təhsilə 157,4 milyon manat, ümumi təhsilə 940,1 milyon manat, ilk texniki-peşə məktəblərinə 33,7 milyon manat, ali təhsilə 37,2 milyon manat, orta ixtisas təhsilinə 43,6 milyon manat, əlavə təhsilə 3,6 milyon manat və təhsil sahəsində digər xidmətlərə 497,9 milyon manat vəsait yönəldilib. Qlobal iqtisadi böhran şəraitində dövlət büdcəsində gəlirlərimizin azalmasına baxmayaraq, təhsil sisteminin maliyyələşdirilməsinə ayrılan vəsaitin həcmi artıb. 2017-ci ildə təhsil xərcləri üçün dövlət büdcəsindən 1859,5 milyon manat, - 2016-cı illə müqayisədə 146 milyon manat və yaxud 8,5 faiz çox vəsait ayrılıb. Dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 11,2 faiz təşkil edən təhsilə ayrılmış vəsait «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»na və «2013-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya»ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə, bu sahədə infrastrukturun müasir tələblərə uyğun qurulmasına, təhsilin məzmununun yeniləşməsinə və yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə maliyyə təminatı yaradacaq.

***- İnsan kapitalı Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi strategiyanın əsas prioritetlərindəndir. Bu istiqamətdə ilkin hədəf olaraq hansı tədbirlər önə çəkilir?***

- İnsan kapitalının inkişafını gələcək iqtisadi strategiyanın əsas hədəflərindən biri kimi müəyyən edən Azərbaycan dövləti «qara qızılı» məhz bu istiqamətə yönəldərək gələcək milli inkişafa əsaslı zəmin yaradır. İnnovativ iqtisadiyyatda güclü maliyyələşdirməyə imkan verən iqtisadi resursların olması ilə bərabər, bu sistemi idarə edən intellektual və texnoloji potensiala da böyük ehtiyac var. İnnovasiya şəbəkəsinin iştirakçılarının sayının daim artması, bura yeni sosial qrupların cəlb edilməsi, innovasiyanın inkişafına istiqamətlənən institusional sistemin yaradılması bu sahədə əsas faktorlardandır. Azərbaycanda insan kapitalının zəngin elmi bazaya söykəndiyini nəzərə alsaq, elmi innovasiyalar sahəsinə yatırılan kapitalın böyük əhəmiyyət daşıdığını yəqin etmək olar.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatına» keçidin əsasının qoyulması, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilir. Qeyd etmək lazımdır ki, ölkədə innovasiya siyasəti üzrə əsas strateji xətt büdcə siyasəti sferasında inkişaf etmiş ölkələrin standartlarına keçidin təmin edilməsindən ibarətdir. Bu o deməkdir ki, təhsilin maliyyələşdirilməsi səviyyəsinin ÜDM-də xüsusi çəkisinin 7%, səhiyyənin 6%, elmin 3% olması zəruridir. 2016-cı ilin statistikasına nəzər salsaq görərik ki, bu göstəricilər Azərbaycanda analoji olaraq 2,9%, 1,2% və 0,2% təşkil edib.

***- Yeri gəlmişkən, bu yaxınlarda Tədris Mərkəzi 15 illiyini qeyd etdi...***

- Bildiyiniz kimi, Vergilər Nazirliyinin Tədris Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2002-ci il tarixli Qərarı ilə yaradılıb. Bu müddət ərzində Mərkəz böyük inkişaf yolu keçib. 2011-ci ilin sentyabr ayının 13-də Şamaxı rayonunun Nağaraxana kəndində cənab Prezidentin şəxsən iştirakı ilə yeni, ən müasir standartlara cavab verən Tədris Mərkəzi istifadəyə verilib. Son 5 ildə bu təhsil ocağı peşəkar vergi orqanı əməkdaşlarının hazırlanmasında, ölkədə vergi mühitinin formalaşmasında, sahibkarların vergi biliklərinin artırılmasında mühüm rol oynayıb.

İnsan resurslarının idarə edilməsi siyasəti vergi orqanlarının ümumi siyasətinin tərkib hissəsinə çevrilib. Vergi sistemində həyata keçirilən kadr siyasəti əməkdaşların potensialından və təcrübəsindən yalnız bir struktur daxilində deyil, bütövlükdə vergi orqanlarının məqsədləri üçün səmərəli istifadə edilməsinə gətirib çıxaracaqdır. Hazırda Vergilər Nazirliyində «2017-2019-cu illərdə Azərbaycan Respublikasının vergi orqanlarında insan resurslarının inkişafı Strategiyası» hazırlanır. Strategiyanın əsas missiyası potensiallı kadrları vergi orqanlarına cəlb etmək və saxlamaq, onların bilik və bacarıqlarından təyinatı üzrə və məqsədyönlü şəkildə istifadə etməklə dövlət vergi orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasından ibarətdir. Strategiyanın uğurla icrası nəticəsində vergi orqanlarına kadrların seçimində, əməkdaşların vəzifədə irəliləməsində və ya yerdəyişməsində vergi orqanlarının spesifik tələbləri və kadrların fərdi göstəriciləri (bilik, bacarıq və təcrübələri) nəzərə alınacaq, vergi orqanlarında insan resurslarının inkişafına yatırılan investisiyanın yüksək səviyyədə geriyə dönüşü təmin ediləcək, insan resurslarının idarə edilməsi institutları (işə qəbul, vəzifədə irəliləmə, təlim, fəaliyyətin qiymətləndirilməsi, rotasiya və digərlərinin) qarşılıqlı şəkildə sıx əlaqələndiriləcək, əməkdaşların motivasiyası və özünüinkişafa həvəsi artırılacaq və insan resurslarının idarə edilməsi sahəsində mövcud hüquqi aktlar sistemləşdiriləcək.

Hazırda Vergilər Nazirliyinin insan resursları strategiyasının qarşısında duran əsas prioritetlərə kadrların seçilməsi və yerləşdirilməsində vergi orqanlarının spesifik xüsusiyyətlərinin, cari və perspektiv hədəflərinin nəzərə alınması, rəhbər vəzifələrə kadrların daha planlı və sistemli hazırlanması, vəzifə tutan şəxslərin idarəetmə sahəsində bacarıqlarının artırılması, əməkdaşların fəaliyyətinin qiymətləndirilməsinin daha obyektiv, hərtərəfli və nəticəyönümlü aparılması, vergi orqanları əməkdaşlarının təliminin onların fərdi karyera inkişafı ilə birbaşa əlaqələndirilməsi, effektiv həvəsləndirmə sistemi qurmaqla peşəkar kadrların vergi orqanlarına cəlb edilməsi və saxlanılması daxildir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Vergilər Nazirliyinin nümayəndələri IOTA-nın növbəti Baş Assambleyasında iştirak ediblər

Bu günlərdə Ukraynanın paytaxtı Kiyev şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) 21-ci Baş Assambleyasının «Dağıdıcı tendensiyalar və yeni biznes modelləri: 21-ci əsrin vergi administrasiyaları üçün çağırışlar və nəticələr» mövzusunda konfransı keçirilib. Azərbaycan Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadənin rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edib.

Ukraynanın Dövlət Fiskal Xidmətinin rəhbərinin müavini, IOTA-nın 2016-2017-ci illər üzrə prezidenti Miroslav Prodan tədbir iştirakçılarını salamlayaraq, ölkəsinin quruma rəhbərlik etdiyi dövr ərzində qarşıya qoyulmuş əsas məqsədlər və əldə olunmuş nailiyyətlər barədə iştirakçılara məlumat verib.



IOTA-nın Katibliyi üzv dövlətlərin ehtiyaclarını və tələbatlarını nəzərə alaraq bu müddət ərzində 4 layihə həyata keçirməyi planlaşdırır

Sonra 2017-2018-ci illər üçün təşkilata rəhbər şəxsin seçilməsi üzrə səsvermə keçirilib. Slovakiya Respublikasının Maliyyə Direktorluğunun rəhbəri Frantişek İmrecze IOTA-nın yeni prezidenti seçilib. Konfransda, həmçinin, 22-ci Baş Assambleyasının 2018-ci ildə Slovakiyada keçirilməsi qərara alınıb. IOTA-nın baş katibi Migel Pinto təşkilatın 2018-ci il üzrə Tədbirlər Planını və büdcəsini iştirakçılara təqdim edib. Bildirib ki, növbəti il üçün təşkilatın büdcəsi 1.091,200 avro təşkil edəcək. IOTA-nın Katibliyi üzv dövlətlərin ehtiyaclarını və tələbatlarını nəzərə alaraq bu müddət ərzində 4 layihə həyata keçirməyi planlaşdırır. Bu layihələr çərçivəsində ƏDV, borcların idarə edilməsi, BEPS, avtomatik məlumat mübadiləsi, təlim və inkişaf mövzusunda tədbirlər keçiriləcək. Konfransda 22-ci Baş Assambleyanın konfransının Azərbaycan, Avstriya, Bolqarıstan, Finlandiya, Macarıstan, İspaniya, İsveçrə, İrlandiya və Litvanın təklifləri əsasında hazırlanmış «Rəqəmsallaşdırmanın vergi administrasiyalarının transformasiyasına təsiri» mövzusu üzrə keçirilməsi yekdilliklə qəbul olunub.

Tədbirin ikinci günündə IOTA-nın yeni strategiyasının hazırlanması üzrə işçi qrupun üzvlərinin müəyyənləşdirilməsi müzakirə olunub və Azərbaycan Respublikası Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktorunun müavini, Beynəlxalq əməkdaşlıq idarəsinin direktoru Orxan Musayev qrupa namizəd seçilib. Sonra OECD-nin nümayəndəsi Devid Bredberi «Vergi və rəqəmsallaşdırma. İmkanlar, çağırışlar və G20 gündəmi», Avropa Komissiyasının Vergi və Gömrük İttifaqı Baş Direktorluğunun nümayəndəsi Maria Tereza Fabreqas «Bitkoin texnologiyası vergi administrasiyaları üçün nə vəd edir», Amerikadaxili Vergi Administrasiyaları Mərkəzinin (CIAT) icraçı katibi Marsio Verdi «Təlim və insan istedadının inkişafı» mövzusunda təqdimatlarla çıxış ediblər. Baş Assambleyanın sessiyalarında iqtisadiyyatda verginin təsirləri və inzibati imkanlar, əməletmə modeli və digər mövzular ətrafında çıxışlar dinlənilib.

# Kənd təsərrüfatının maliyyə təminatı yaxşılaşdırılacaq

Maliyyə Sabitliyi Şurasının bu günlərdə keçirilən növbəti toplantısında «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»nin «maliyyəyə çıxışın asanlaşdırılması» hədəfi üzrə Tədbirlər Planı qəbul olunub.

Sənəddə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının və emalının genişləndirilməsi üçün əlverişli mühitin yaradılmasını təmin etmək məqsədilə konkret prioritetlər müəyyən edilib. Strateji Yol Xəritəsində rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur.

### Sahibkarlar üçün aqropolislər...

Kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib ki, dövlətin əsas məqsədlərindən biri aqrar sahədə maliyyə təminatını yaxşılaşdırmaq və mülkiyyətçilərin daha asan və rahat şəkildə kreditlərə çıxışını təmin etmək, kənd təsərrüfatında kredit zəmanəti mexanizmini yaratmaq, maliyyə təminatı sahəsində şəffaflığı gücləndirməkdən ibarətdir. Kənd təsərrüfatı istehsalının təbii iqlim şəraitindən asılılığının yüksək olması, kapitalın dövretmə sürətinin aşağı düşməsi və s. amillər bu sahədə qənaət normasının zəifləməsinə səbəb olur. Bu da son nəticədə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitləri hesabına investisiya qoymaq, eləcə də maliyyə bazarlarından müvafiq vəsaitlər cəlb etmək imkanlarını məhdudlaşdırır. Buna görə də bu sahənin maliyyə təminatının yaxşılaşdırılmasında dövlətin rolu qaçılmazdır.

Son illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılan kreditlərin həcmi davamlı şəkildə artmaqdadır. Bu sahəyə kredit qoyuluşu 2005-ci ildə 97,6 milyon manat olduğu halda, 2015-ci ildə 508,1 milyon manat təşkil edib. 2005-2015-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılmış güzəştli kreditlərin həcmi 18,1 dəfə artıb. Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən də bu sahəyə güzəştli kreditlərin ayrılması həyata keçirilir. Hazırda kənd təsərrüfatına verilən kreditlərin ümumi həcminin artımı, əsasən, büdcə vəsaiti ilə verilən güzəştli kreditlər hesabına təmin edilir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən şəxslərin kommersiya şərtləri ilə maliyyə vəsaitləri cəlb etmək imkanlarının məhdud olması, təbii ki, hökuməti narahat edir. Bunun əsas səbəbləri kənd təsərrüfatı istehsalının özünəməxsus xüsusiyyətləri, əksəriyyəti kiçik həcmdə olan təsərrüfatların iqtisadi potensialının aşağı olması, kənd yerlərində torpaq və əmlak bazarının kifayət qədər inkişaf etməməsi, girov təminatında mövcud problemlər, kənd təsərrüfatı sığortasının zəif inkişafı, zəmanət mexanizminin işləməməsi ilə bağlıdır. Buna görə də qarşıdakı illərdə kənd təsərrüfatı sığortasına diqqət artırılacaq, dünya təcrübəsində geniş tətbiq olunan müvafiq sığorta fondunun yaradılması işləri həyata keçiriləcək.

Strateji Yol Xəritəsi çərçivəsində kiçik ailə-kəndli təsərrüfatlarının fəaliyyətinin gücləndirilməsi və onların bazara çıxışının konsolidasiyası, iri aqrar komplekslərin yaradılması və emal sənayesi ilə kənd təsərrüfatı məhsulları istehsalı arasında səmərəli inteqrasiyanın gücləndirilməsi də nəzərdə tutulur. Eyni zamanda, kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqi təcrübəsinin genişləndirilməsi, istehsalçıların bilik və bacarıqlarının artırılmasına imkan verən elm, təhsil və məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi də tədbirlər planına aiddir. Azərbaycanda investisiya axınının əhəmiyyətli dərəcədə artmasına şərait yaradılması, eləcə də beynəlxalq bazar iştirakçılarının kompleks layihələr və aqropolislər vasitəsilə yerli 46 bazara daxil olması nəzərdə tutulur. Bu məqsədə xidmət edən ilk aqropolis - Ələtdəki Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zona yaradılacaq.

### Gözləntilər nə vəd edir...

2020-ci ilədək dövlət və özəl maliyyə, bank qurumlarının birgə resursları hesabına aqrar sahəyə 1 milyard 170 milyon manat investisiya qoyuluşu nəzərdə tutulur. Gözləntilərə əsasən, yaxın illərdə daxili və xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialı gücləndiriləcək, dövlət-özəl tərəfdaşlığı inkişaf edəcək, aqrobiznesin inkişafına dəstək infrastrukturu formalaşdırılacaq, maliyyələşdirmə mexanizmləri təkmilləşdiriləcək, kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi artırılacaq, ekoloji təmiz kənd təsərrüfatı istehsalı inkişaf etdiriləcək. 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının qeyri-neft ixracındakı payı bu məhsulların istehsal həcminin və səmərəliliyinin artırılmasına tətbiq edilən məqsədyönlü yanaşma əsasında əhəmiyyətli dərəcədə yüksələcək. Proqnozlara əsasən, nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi sayəsində kənd təsərrüfatı məhsullarının payı 2020-ci ildə ÜDM-də birbaşa 575 milyon manat, dolayı şəkildə isə 660 milyon manat olmaqla, ümumilikdə 1235 milyon manat artıracaq.

### Aqrar sahəyə vergi güzəştləri davam etdiriləcək

Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının həyata keçirilməsində vergi güzəştləri və təşviqi tədbirləri də prioritetlərdən olacaq. Qeyd edək ki, 15 ildən artıqdır ki, dövlət səmərəli vergi rejimi tətbiq etməklə kənd təsərrüfatının inkişafını stimullaşdırmaqdadır. 1999-cu ildən kənd təsərrüfatı sektoru, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddır. Bu isə təxminən hər il 130-140 milyon manat vəsaitin istehsalçıda qalması deməkdir. Ümumilikdə, bu siyasətin həyata keçirilməsi sayəsində son 17 ildə 2 milyard manata yaxın vəsait fermerlərin sərəncamında qalıb ki, bu da kənd təsərrüfatı istehsalçıları üçün əlavə maliyyə, investisiya mənbəyi təşkil edir.

2017-ci ildən qüvvəyə minən Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri aqrar sahədə çalışan kiçik və orta sahibkarlığın fəaliyyətini stimullaşdırmaq, onların vergi yükünü optimallaşdırmaqdır

Xatırladaq ki, 2017-ci ildən qüvvəyə minən Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri aqrar sahədə çalışan kiçik və orta sahibkarlığın fəaliyyətini stimullaşdırmaq, onların vergi yükünü optimallaşdırmaqdır. Bu məqsədlə buğda ununun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub.

Kənd təsərrüfatı istehsalçıları 2019-cu il yanvarın 1-dək vergi güzəştləri ilə əhatə olunacaqlar. Aqrar sahənin əsas sektorları üzrə Strateji Yol Xəritəsində stimullaşdırıcı vergi-gömrük siyasətinin həyata keçirilməsi, güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi, xarici bazarlara çıxış üçün bir sıra məhsullara tətbiq edilən gömrük-idxal tarif dərəcələrinə yenidən baxılması, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi nəzərdə tutulur. Kənd təsərrüfatının maliyyə resurslarına tələbatının ödənilməsi və girovsuz kreditlərin tətbiqi, sektorun kreditləşməsinə yönəlik stimullaşdırma tədbirləri də əsas prioritetlərdəndir.

**E.CƏFƏRLİ**

# Vergi inzibatçılığı ilə bağlı qaydalar yeni redaksiyada...

**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin 14-cü hissəsinin icrasının təmin edilməsi məqsədilə «Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydaları» təsdiq edilib. Adıçəkilən qayda Azərbaycan Respublikası ilə hər hansı xarici dövlət arasında imzalanmış və müvafiq dövlət daxili prosedurlara uyğun qaydada qüvvəyə minmiş gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin icrasının təmin edilməsi qaydalarını müəyyənləşdirir.**

***Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə*** bildirib ki, Azərbaycan indiyədək 53 dövlətlə ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş imzalayıb, 8 dövlətlə isə sazişlərin imzalanması ilə bağlı danışıqlar aparılır. Hazırda 49 dövlətlə imzalanmış saziş hər iki tərəfdə müvafiq dövlətdaxili prosedurlardan keçərək qüvvəyə minib.

Qaydaların yeni redaksiyasında elektron müraciət etmək imkanı və güzəştlərin əvvəlcədən tətbiq edilməsində gəlir növlərinin siyahısının genişləndirilməsi kimi yeniliklərin yer aldığını deyən Z.Fətizadə bundan əvvəlki qaydalara əsasən ikiqat vergitutmanın aradan qaldırılması sazişləri üçün 6 ərizə forması tələb olunduğunu və kağız daşıyıcıdan istifadə edildiyini, bunun da həm vergi orqanı, həm də vergi ödəyiciləri üçün müəyyən çətinliklər yaratdığını qeyd edib: «Hazırkı yeniliklərə əsasən, sənəd formaları xeyli sadələşdirilib, eyni zamanda kağız dövriyyəsi minimuma endirilməklə elektron müraciət etmək imkanı yaradılıb. Bundan başqa, vergi ödəyiciləri üçün bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi və formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi imkanı yaradılıb. Qeyri-rezidentlər artıq Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə elektron imza, o cümlədən «ASAN imza» sertifikatı alaraq müvafiq DTA formaları ilə elektron qaydada müraciət edə bilərlər».

Z.Fətizadə, həmçinin, qaydalarda qeyd olunan yeni DTA formaları, onların doldurulma qaydaları barədə ətraflı məlumat verərək bildirib ki, rezidentlik sertifikatı almaq üçün müraciət edən şəxs tərəfindən həmin rezidentlik sertifikatının təqdim ediləcəyi xarici dövlət və həmin dövlətin müvafiq orqanı və ya şəxsi və sertifikatın təqdim edilmə məqsədləri barədə məlumatlar DTA-01 formasında dolğun və ətraflı şəkildə əks etdirilməlidir. Əks halda, həmin şəxsə rezidentlik sertifikatının verilməsindən imtina olunacaq.

DTA-02 forması - «Xarici dövlətdə ödənilmiş verginin Azərbaycan Respublikasında hesablanan vergidən çıxılmasına dair» ərizə formasıdır. Bu forma rezident fiziki şəxslər tərəfindən gəlir vergisinin bəyannaməsi, rezident hüquqi şəxslər tərəfindən isə mənfəət vergisinin bəyannaməsi ilə birlikdə digər dövlətdə vergilərin ödənilməsini təsdiq edən sənədlər əlavə olunmaqla təqdim edilməlidir. DTA-03 forması isə qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq olunması haqqında ərizə formasıdır. Bu forma qeyri-rezident tərəfindən ona gəlir ödəyən hər bir şəxs üzrə ayrıca doldurularaq təqdim edilməlidir.

«Qeyri-rezident tərəfindən Azərbaycan Respublikasında ödənilmiş vergilərin təsdiq edilməsi haqqında» ərizə forması olan DTA-04 həm işəgötürən tərəfindən, həm də qeyri-rezident muzdlu işçinin özü tərəfindən işəgötürənin uçotda olduğu vergi orqanına təqdim oluna bilər. Vergi orqanı tərəfindən müraciətə baxılması nəticəsində DTA-04 formasında göstərilmiş məlumatlar təsdiqlənərsə, «Ödənilmiş vergilər haqqında» arayış tərtib ediləcək və elektron formada imzalanaraq müraciət edən şəxsə göndəriləcək. «Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirindən artıq tutulmuş vergilərin geri qaytarılması haqqında» ərizə forması olan DTA-05 qeyri-rezident tərəfindən ona gəlir ödəyən hər bir şəxs üzrə ayrıca doldurularaq təqdim edilməlidir.

Z.Fətizadənin sözlərinə görə, ikiqat vergitutmanın aradan qaldırılması sazişlərinin elektronlaşdırılması xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına, vergi ödəyicilərinin layihə xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə, digər dövlətlərin vergi orqanları ilə elektron məlumat mübadiləsinin həyata keçirilməsinə münbit şərait yaradacaq.

**A.NƏBİYEVA**

# Vergi ödəyicilərinin dövlət qeydiyyatı və uçotu

Vergi nəzarətini həyata keçirmək məqsədilə hər bir vergi ödəyicisinə respublika ərazisində vahid olan və vergi ödəyicisi tərəfindən mühasibat, statistika, vergi və digər sənədlərdə hökmən göstərilməli olan vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) verilir. Vergi uçotuna hüquqi şəxslər qeydiyyatda olduqları, Azərbaycan mənbəyindən gəlir əldə edən və bu gəlirdən ödəmə yerində vergi ödəməyən qeyri-rezidentlər həmin gəlirin alındığı yer üzrə, rezident fiziki şəxslər yaşadıqları, xüsusi notariuslar isə fəaliyyət göstərdiyi yer üzrə alınırlar. Vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) olarsa, həmin təsərrüfat subyekti (obyekti) olduğu yer üzrə uçota alınır və bu barədə vergi ödəyicisinə müvafiq arayış verilir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən aldığımız məlumata görə, 2017-ci ilin yanvar-iyun ayları ərzində 5 min 580 hüquqi şəxs, 98 min 388 fiziki şəxs olmaqla, qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 103 min 968 təşkil etmişdir. Bu, 2016-cı ilin müvafiq dövrünə nisbətən 2 dəfə çoxdur. Belə ki, ötən il 4 min 310 hüquqi şəxs, 48 min 911 fiziki şəxs olmaqla, 53 min 221 vergi ödəyicisi qeydiyyatdan keçmişdir.

2017-ci ilin yanvar-iyun ayları ərzində ölkədə 16 min təsərrüfat subyekti (obyekti) qeydiyyatdan keçmişdir. Hesabat dövründə qeydiyyatdan keçmiş NKA-ların sayı 8 min 540, POS-terminalların sayı isə 3 min 415 olmuşdur. Bu dövr ərzində 94 min 712 vergi ödəyicisi fəaliyyətini dayandırmış, 16 min 661 vergi ödəyicisinin uçotu ləğv edilmişdir ki, bu da həmin dövrdə qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayından 30 min 993 vahid azdır. Belə ki, hesabat dövründə 103 min 968 vergi ödəyicisi qeydiyyata alınmış və 38 min 398 vergi ödəyicisi fəaliyyətini bərpa etmişdir.

2017-ci ilin yanvar-iyun ayları ərzində 15 min 826 təsərrüfat subyekti fəaliyyətini bərpa etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11.690 və ya 3,8 dəfə çox olmuş, fəaliyyətini dayandırmış təsərrüfat subyektlərinin sayı isə (10.752) ötən ilin müvafiq dövrü (12.805) ilə müqayisədə 2053 və ya 16,0 faiz az olmuşdur. Hesabat dövründə 9 min 922 təsərrüfat subyekti ləğv edilmişdir ki, bu da ötən ilin müvafiq dövründə ləğv edilmiş 18 min 253 təsərrüfat subyekti ilə müqayisədə 8 min 331 və ya 45,6 faiz az olmuşdur.







Qeyd olunan dövr ərzində Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar fiziki şəxslərin 1 gün müddətində vergi uçotunun həyata keçirilməsi məqsədilə onların ərizələrinin «ASAN xidmət» və Vergi ödəyicilərinə xidmət mərkəzlərində qəbul olunaraq emal edilməsi ilə əlaqədar «Vergilər Nazirliyi əməkdaşlarının «ASAN xidmət» mərkəzlərində fəaliyyətinin tənzimlənməsi Qaydaları»nda və «Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları»nda dəyişikliklər edilmişdir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında ərizənin doldurulma Qaydası» və «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında ərizə» forması yeni redaksiyada hazırlanmış və vergilər nazirinin müvafiq əmri ilə təsdiq edilmişdir.

Qeyd edək ki, Vergi Məcəlləsinə əsasən, vergi uçotu ilə bağlı qanun pozuntularına, yəni qanunla müəyyən edilmiş müddətdə vergi orqanlarında uçota alınma və olduğu yer barədə ərizə verilməməsinə, habelə uçot məlumatlarında dəyişiklik haqqında məlumat təqdim edilməməsinə görə vergi ödəyicisinə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 405-ci maddəsinə uyğun olaraq hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunla müəyyən edilmiş müddətdə və qaydada müraciət olunmamasına görə vəzifəli şəxslərə 1000 manatdan 2000 manatadək, hüquqi şəxslərə isə 2500 manatdan 3000 manatadək cərimə tətbiq edilir.

**AYTƏN**

ELAN

Hörmətli vergi ödəyicisi!

ASAN İmza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyul ayında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin iyul ayında bitəcəyindən, qüvvədə olan ASAN İmza sertifikatının müddətini uzatmaq və ya yenisini almaq üçün aşağıdakı ünvanlara müraciət edə bilərsiniz:

• Qüvvədə olan ASAN İmzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN İmza SİM kartını dəyişdirərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ASAN xidmət mərkəzlərinə;

• ASAN İmza SİM kartını dəyişdirdikdən sonra birbaşa vergi ödəyicilərinə xidmət mərkəzlərinə;

• ASAN İmza SİM kartını dəyişdirdikdən sonra birbaşa ASAN xidmət mərkəzlərinə.

ASAN İmza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə və ya www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Vergi borcunu ödəməyənlərin xoşagəlməz aqibəti...

Vergi ödəyicilərinin vergi borclarının yaranmasının qarşısının alınması məqsədilə Vergilər Nazirliyi tərəfindən bütün mümkün variantlardan istifadə olunur. İlk növbədə, vergi borclarının yaranma səbəbləri araşdırılır, həmin borcların ödənilməsi ilə bağlı vergi ödəyicisinin imkanları dəyərləndirilir və borcun yönəldilməsi üçün mənbələr dəqiq müəyyən edilir. Bununla bağlı Vergilər Nazirliyində borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılmış və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə bölüşdürülmüşdür. Bütün bunlar vergi borcunun ödənilməsi istiqamətində daha səmərəli nəticə verə biləcək metodların seçilməsinə, bu sahədə görüləcək işlərə nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə köməklik göstərir. Vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü olaraq bağlanılan «Vergi partnyorluğu sazişi» vergi ödəyicilərinə bir sıra üstünlüklər verməklə yanaşı, onların qarşısında bir sıra məsuliyyət də yaradır. Vergi orqanı ilə partnyorluq sazişi bağlamaq istəyən vergi ödəyiciləri, ilk öncə, büdcə qarşısında bütün vergi öhdəliklərini yerinə yetirməlidir. Hazırda vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması

üçün geniş məlumatlandırma vasitələrindən istifadə edilir. Bunun üçün vergi ödəyicilərinə bildiriş və xəbərdarlıqların göndərilməsi ilə yanaşı, onların mobil telefon nömrələrinə borc məbləğləri barədə qısa mesajların göndərilməsi də həyata keçirilir. Bununla da vergi borcu barədə məlumatın vergi ödəyicisinə vaxtında çatdırılması vergi borclarının operativ qaydada alınmasına köməklik göstərir.

**Vergi ödəyicisi olan fiziki, yaxud hüquqi şəxs borcunu ödəmədikdə məhkəmənin qərarı əsasında onun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır**

Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərdə vergi borcu ilə bağlı bir sıra yeniliklər təsbit olunub. Vergi borclarının dövlət büdcəsinə alınmasının tam həcmdə və operativ təmin edilməsi məqsədilə vergi ödəyicisinin siyahıya alınmış əmlakının icra məmurunun sifarişi əsasında elektron hərrac vasitəsilə satılması, vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışından əldə olunan vəsait barədə, habelə siyahıya alınmış əmlakların satılması üçün icra məmurları tərəfindən edilmiş sifarişlər üzrə rüblük məlumatların vergi orqanlarına elektron şəkildə təqdim edilməsi də bu yeniliklər sırasındadır. Bundan başqa, hərracla bağlı elanların verilməsi müddətinin azaldılması ilə bağlı müddəalar da Vergi Məcəlləsinə daxil edilmişdir. Bu dəyişikliklər müasir mexanizmlər tətbiq edilməklə qısa müddət ərzində vergi borclarının dövlət büdcəsinə alınmasını təmin edəcəkdir. Qanunvericilik aktlarına edilmiş son əlavə dəyişikliklərdə vergi borcları ilə bağlı stimullaşdırıcı müddəalar da öz əksini tapmışdır. Belə ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinin «Qeyd» hissəsinin tələblərinə əsasən, cinayət tərkibi yaratmış vergi borcu ilə əlaqədar əməl ilk dəfə törədilərsə və cinayət nəticəsində vurulmuş ziyan tamamilə ödənilərsə, vergi ödəyicisi cinayət məsuliyyətindən azad oluna bilər. Cinayət Məcəlləsinə edilən əlavə və dəyişikliklərə görə, Azərbaycanda qanunsuz sahibkarlıqla məşğul olan şəxslər cərimə ödəməklə məsuliyyətdən azad olunacaqlar. Məcəllənin 192-ci (qanunsuz sahibkarlıq) maddəsinə əlavə edilən «Qeyd» bölməsində göstərilir ki, Cinayət Məcəlləsinin 192.1-ci maddəsində nəzərdə tutulmuş əməli ilk dəfə törədən şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur.

Xatırladaq ki, dəyişiklikdən əvvəlki qanunvericiliyə görə, qanunsuz sahibkarlıqla məşğul olan şəxs cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya 6 ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı. Bundan başqa, əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkarlar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq 20.000 manat olmuşdur. Yəni 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər. İlk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad edilirlər. Bu dəyişikliklər nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilib.

Buna baxmayaraq, qanunvericilikdə vergi borclarının ödənilməməsinə görə sərt tədbirlərin görülməsi də öz əksini tapıb. Məsələn, vergi ödəyicisi olan fiziki, yaxud hüquqi şəxs borcunu ödəmədikdə məhkəmənin qərarı əsasında onun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır. Ölkədən getmə ilə bağlı qərar yalnız borc ödənildikdən sonra vergi orqanı 2 iş günü ərzində müvafiq ərizə ilə aidiyyəti məhkəməyə müraciət edir və məhkəmə tərəfindən yenə 2 iş günü ərzində həmin məhdudlaşdırmanın götürülməsi barədə qətnamə çıxarılır.

Bundan əvvəl isə Vergilər Nazirliyində tətbiq edilən müasir informasiya texnologiyalarından istifadə olunmaqla borclu vergi ödəyicilərinə bu barədə elektron bildirişlər göndərilir, SMS və səsli mesajlar vasitəsilə məlumatlandırılır. Daha sonra həmin vergi ödəyiciləri vergi orqanına dəvət edilərək, mövcud borclarının yaranma səbəbləri və ödənilmədiyi halda görüləcək tədbirlər barədə onlara izahat verilir. Bu yanaşma bir çox hallarda yaranmış vergi borclarının ilkin mərhələdə, heç bir məcburi tədbir görülmədən, ödənilməsi ilə nəticələnir.

Ancaq mövcud qanunlara məhəl qoymayan və məqsədli şəkildə vergidən yayınmağa cəhd göstərən vergi ödəyicilərinə qarşı qanunvericilikdə nəzərdə tutulmuş bütün tədbirlər həyata keçirilir. Onların bank hesablarına sərəncam qoyulur, əmlakları siyahıya alınaraq hərrac vasitəsilə satılır və s.

**Xatırladaq ki, mövcud qanunvericiliyə görə, vergidən yayınma əməlləri mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya külli miqdarda törədildikdə vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.**

**Rəşad SADIQOV**

# Qeydiyyat sahəsində təcrübələr müzakirə olunub

Litva Respublikasının paytaxtı Vilnüs şəhərində «Avropa Kommersiya Qeydiyyatçıları Forumu»nun (ECRF) konfransı keçirilmişdir. Qeydiyyat sahəsində təcrübələr, problemlər və onların həlli yollarının müzakirəsinə həsr olunmuş tədbirə 44 ölkədən nümayəndələr qatılmışlar.

Konfrans çərçivəsində «Mövcud metodun praktiki tətbiqi», «Benefisiar sahiblik», « Qlobal yanaşma», «Avropanın rəqəmsal gündəliyi - İT idarəçiliyinin yaradılması», «Saxlayıcıya təsir edən məlumat məsələləri», «Beynəlxalq qeydiyyat təşkilatlarında inkişaf» mövzularında müzakirələr aparılmışdır.

Konfransda Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin direktoru Samir Seyidəhmədli də iştirak etmişdir.

ELAN

**Hörmətli vergi ödəyiciləri!**

2017-ci ilin 2-ci rübü üzrə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi ilə əlaqədar vergi ödəyicilərinə xidmət mərkəzləri 17, 18, 19 və 20 iyul tarixlərində saat 09:00-dan 20:00-dək fasiləsiz xidmət göstərəcəkdir.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Rəqəmsal bələdiyyə xəritələri hazırlanacaq

**Ölkədə aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində digər sahələrdə olduğu kimi, torpaq münasibətlərinin tənzimlənməsi, torpaqların elektron kadastr uçotu sisteminin yaradılması, daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının aparılması, dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi sahəsində də mühüm irəliləyişlərə nail olunub. Bu sahələrdə mövcud dünya təcrübəsinə söykənən yeni texnologiya və idarəetmə üsulları tətbiq edilib və qanunvericilik bazası təkmilləşdirilib.**

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edərkən bildirib ki, Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin tətbiqi ilə bağlı işlər müvəffəqiyyətlə icra edilir: «Ölkədə ilk dəfə olaraq Bakı, Sumqayıt, Gəncə şəhərlərinin torpaqları və onlar üzərindəki daşınmaz əmlaklar barəsində elektron kadastr məlumat bazası yaradılıb, bu şəhərlərin rəqəmsal kadastr xəritələri tərtib olunub. Respublikanın 12 rayonunda elektron kadastr uçotu işləri yekunlaşıb. Layihə çərçivəsində 870 min hektardan çox ərazidə irimiqyaslı çöl torpaq tədqiqatı, 700 min hektara yaxın ərazidə çöl geobotaniki tədqiqat işləri aparılıb».

Bildirilib ki, torpaqların kadastr uçotuna alınması işləri yekunlaşdıqca etibarlı kadastr məlumatları əsasında şəhər, qəsəbə, kənd bələdiyyələrinin müasir rəqəmsal xəritələri hazırlanır. Bu işlər Gəncə, Sumqayıt, Şəki şəhərlərinin, Xızı və Salyan rayonlarının inzibati sərhədləri daxilində yerləşən bələdiyyələr üzrə artıq yekunlaşıb: «Torpaq uçotu materiallarının təhlili göstərir ki, bir sıra təsərrüfatlarda pay bölgüsünün sona çatdırılması halları, pay torpaqlarına dair sənədlərdəki məkan göstəriciləri ilə vətəndaşların torpaqlardan faktiki istifadə vəziyyətləri arasında uyğunsuzluqlar mövcuddur. Kadastr uçotu işlərinin nəticələrindən istifadə etməklə torpaq islahatı başa çatmamış təsərrüfatlarda yerquruluşu işləri həyata keçirilir. Bu işlər çərçivəsində Xaçmaz, Siyəzən, İmişli, Beyləqan rayonlarında yaşayan 1000-dən çox ailənin torpaqla bağlı problemləri öz müsbət həllini tapıb. Təyinatından və mülkiyyət növündən asılı olmayaraq, bütün torpaqların kadastr uçotuna alınması işləri 2020-ci ilədək yekunlaşacaq, dəqiq kadastr uçotu məlumatları əsasında rəqəmsal bələdiyyə xəritələri hazırlanacaq».

Ölkə ərazisi üzrə 166 min hektar torpaq sahələrinin kateqoriyası dəyişdirilərək aqroparkların və iri təsərrüfatların yaradılması məqsədilə investorların istifadəsinə verildiyini deyən komitə sədri əlavə edib ki, yerli icra hakimiyyəti orqanları ilə birlikdə görülmüş tədbirlər nəticəsində 240 min hektar səmərəsiz istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələri geri qaytarılıb və əkin dövriyyəsinə cəlb olunması üçün zəmin yaradılıb.

**240 min hektar səmərəsiz istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələri geri qaytarılıb və əkin dövriyyəsinə cəlb olunması üçün zəmin yaradılıb**

Qeyd olunub ki, ölkədə yaradılmış müasir Ünvan Reyestri İnformasiya Sisteminə respublikanın 57 şəhər və rayonu üzrə 30 minə yaxın küçə və prospekt, 600 mindən çox giriş ünvan nömrələri daxil edilib. Həmin sistemin məlumatlarına istinad etməklə müasir Milli Naviqasiya Sistemi hazırlanıb və bu ilin əvvəlindən «AzNav» adı ilə istifadəyə verilib. Hazırda bu xidmətdən istifadə edənlərin sayı 100 mini ötüb. Bu ilin altı ayında ölkə üzrə 90 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur.

Özəlləşdirmə prosesinin təbliği və bu zaman şəffaflığın təmin olunması məqsədilə «Özəlləşdirmə portalı»nın yaradıldığını deyən K.Həsənov bildirib ki, burada özəlləşdirilən müəssisələrin satış qiyməti, iqtisadi-texniki göstəriciləri və digər məlumatlar öz əksini tapıb: «Portaldan istifadə edənlərin sayı 800 mini keçib. Eyni zamanda, özəlləşmə prosesinə xarici investorların cəlb edilməsi üçün nüfuzlu beynəlxalq qurumların iştirakı ilə biznes forumlar və təqdimatlar təşkil olunub. Özəlləşdirilən dövlət əmlakının bazar qiymətlərinə uyğun qiymətləndirilərək hərraclara çıxarılması təmin edilir. Açıq, şəffaf və rəqabət şəraitində keçirilən hərraclar təşkil edilərkən yeni innovativ üsullardan istifadə olunmaqla, elektron hərracların keçirilməsinə başlanılıb. Bu istiqamətdə görülmüş tədbirlər nəticəsində 300-dən çox dövlət əmlakı özəlləşdirilib. Hesabat dövründə özəlləşdirmədən daxil olan 52,3 milyon manat vəsait dövlət büdcəsinə köçürülüb».

**AYTƏN**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## «Yaşıl kart» sistemi – arzuolunmaz problemlərin həllinə «yaşıl işıq»...

**Beynəlxalq miqyasda ölkələr arasında münasibətlərin inkişafı, qonşuluq münasibətlərinin və turizm əlaqələrinin artması fonunda dövlətlərarası, hətta qitələrarası avtomobil səyahətinə çıxanların sayı durmadan artır. Təəssüflər olsun ki, heç də həmişə avtomobillə səfərlər problemsiz və xoş təəssüratlarla yadda qalmır. Bu səfərlər zamanı avtomobilimizə, əmlakımıza və ya sağlamlığımıza zərər vurulması ilə nəticələnən hadisə hər birimizin başına gələ bilər. Nəzərə alsaq ki, səyahət etdiyimiz ölkədə əcnəbiyik, qanunlara bələd deyilik, - vurulan ziyanın ödənilməsi məsələsi həm hüquqi, həm inzibati, həm də maddi baxımdan bir çox problemlərin ortaya çıxmasına səbəb olur...**

Məsələ ilə bağlı münasibətini bildirən hüquqşünas Xəyal Məmmədxanlının sözlərinə görə, bir sıra dövlətlər regional bürolar yaradır, bir-birlərinin sığorta şəhadətnamələrinin qarşılıqlı tanınması məsələsini həll etməyə cəhd göstərirlər: «Belə sistemlərə misal olaraq Ərəb Liqası ölkələri arasında yaradılmış, Orta Şərq və Şimali Afrikada da tətbiq edilən «Narıncı kart» sistemini, ASEAN ölkələri və Cənub Şərqi Asiyada fəaliyyət göstərən «Mavi kart», CEMAC (Mərkəzi Afrika Ölkələrinin İqtisadi İttifaqı) ölkələri arasında «Çəhrayı kart», ECOWAS (Qərbi Afrika Ölkələrinin İqtisadi İttifaqı) ölkələrini əhatə edən və Qərbi Afrikada da işləyən «Qəhvəyi kart», habelə COMESA (Cənub-Şərqi Afrika Ölkələrinin İqtisadi İttifaqı) ölkələri arasında yaradılan «Sarı kart» sistemini göstərmək olar. Hazırda ECO (İqtisadi Əməkdaşlıq Təşkilatı) üzvləri olan ölkələr arasında yeni - «Ağ kart» sisteminin yaradılmasını təklif edənlər də var».



Mütəxəssisin fikrincə, bu sistemlər arasında ən geniş yayılmışı və azərbaycanlı nəqliyyat vasitəsi sahiblərini daha çox maraqlandıran «Yaşıl kart» sığorta sistemidir. 1949-cu ildə BMT-nin Avropa İqtisadi Komisiyyasının (UNECE) tövsiyəsi əsasında təsis edilmiş bu sistem 1953-cü il yanvarın 1-dən tətbiq olunmağa başlanmışdır: «Yaşıl kart» sistemi, əslində, bir sıra üzv dövlətlərin səlahiyyətli orqanları və sığorta təşkilatları arasında razılaşmadır. Bu razılaşmanın əsas məqsədi odur ki, yol-nəqliyyat hadisəsi nəticəsində hər hansı bir ölkənin vətəndaşına başqa bir ölkənin nəqliyyat vasitəsinin sürücüsü zərər vurduqda zərərçəkən şəxslər təminatsız və çarəsiz durumda qalmasınlar. Sistemin əsas üstünlüyü odur ki, siz artıq öz ölkənizdə «Yaşıl kart» sığortasını əldə edərək, istənilən üzv ölkənin ərazisinə avtomobillə daxil ola və hərəkət edə bilərsiniz».

X.Məmmədxanlı bildirib ki, bu sistemə əsasən, «Yaşıl kart» haqqında sazişin iştirakçıları olan dövlətlərin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər dövlətlərin ərazisində etibarlı sayılır. 2015-ci ildən Azərbaycan Respublikasının da tam hüquqlu üzv kimi daxil olduğu «Yaşıl kart» sistemi hazırda 48 ölkəni əhatə edir: «Vurulan zərərin əvəzinin ödənilməsi məqsədilə sistemə üzv ölkələrin hər birində təsis edilmiş «Yaşıl kart» büroları xarici avtonəqliyyat vasitəsi sürücülərinin səbəb olduğu yol-nəqliyyat hadisəsi nəticəsində xəsarət almış və ya əmlakına zərər dəymiş üçüncü şəxslərə dəyən zərərin əvəzinin hadisə baş verən ölkədə sığorta ödənişinin veriləcəyi barədə təminat verir. Daha sonra hadisə baş verən ölkədə fəaliyyət göstərən büro sürücünün mənsub olduğu ölkənin bürosundan ödənilmiş sığorta məbləğini kompensasiya etmək hüququna sahibdir.

Qeyd edək ki, nəqliyyat vasitəsi sahibləri səfərin müddətinə görə 1, 3, 6 aylıq və 1 illik sığorta müqavilələri əldə edə bilərlər. Azərbaycan İcbari Sığorta Bürosunun məlumatına əsasən, «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 2017-ci ilin iyun ayı ərzində 3026 sığorta müqaviləsi bağlanılıb. Bunlardan 1731-i Türkiyə və İran İslam Respublikasına, 1230-u Rusiya, Moldova və Ukraynaya, 65-i isə sistemə daxil olan digər ölkələrə (Belarus və İsrail istisna olmaqla) səfər edən avtonəqliyyat vasitələri ilə bağlı olub. Hesabat dövründə beynəlxalq sığorta müqavilələri üzrə sığorta şirkətləri tərəfindən toplanmış sığorta haqları 175.731 manat təşkil edib. «Yaşıl kart» müqavilələrinin 2575-i minik, 237-si yük, 200-ü qoşqu, 11-i avtobus, 3-ü isə motosiklet kateqoriyasına aid olub.

**Fəxriyyə İKRAMQIZI**

## 2017-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergininbəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**2017-ci ilin 2-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

*(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir. **(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)**

**Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Dövlər rüsumu haqqında hesabat**

cari ilin **iyul ayının 20-dək** vergi orqanına **təqdim edilməlidir** (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergicinin ödəyiciləri tərəfindən**

2017-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr **iyul ayının 17-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Vahid baza vergidən yayınmanın qarşısını alacaq

Avropa İttiqaqının vergilər üzrə komissarı Pyer Mosovisi təklif edilmiş korporativ vergilərin tutulmasına vahid konsolidə olunmuş bazanın (CCCTB - common consolidated corporation tax base) «vergidən yayınanlara qarşı həlledici alət olduğunu» bildirmişdir. O qeyd etmişdir ki, CCCTB bütün Avropa İttifaqı üzrə vergi tutulan gəlirlərin hesablanmasında şirkətlər üçün vahid qaydalar təmin edəcək. Moskivisinin sözlərinə görə, «iri transmilli şirkətlər bundan sonra öz vergi öhdəliklərinin məbləğini azaltmaq üçün ayrı-ayrı ölkələrin sistemləri arasındakı uyğunsuzluqlardan, güzəştli vergi rejimlərindən sui-istifadə edə və transfer qiymətqoyma ilə oynaya bilməyəcəklər».

Buna baxmayaraq, Pyer Moskovisi Avropa İttifaqının bütün üzv dövlətlər üçün vahid korporativ verginin dərəcəsini müəyyənləşdirə biləcəyinə inanmır. Onun qənaətinə görə, vergi qaçaqlarının sayı minimuma endiriləndə şirkətlər və vergi ödəyiciləri «eyni meydanda oynamalıdırlar».

# CAR-da vergilərin artırılması dövlət büdcəsinə təsir etməyib

Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına əsasən, Cənubi Afrika Respublikasında (CAR) keçən il vergilərin artırılması dövlət büdcəsinə gözlənilən gəlirləri gətirməmişdir. Dövlətin planlarına əsasən, 3 il ərzində büdcə daxilolmaları 3,7 milyard ABŞ dolları həcmində artmalı, konsolidasiya olunmuş məqsədli gəlirlər isə 2016-2017-ci illər üçün ÜDM-in 30,2%-ni təşkil etməli idi. CAR-da vergi islahatı bunları əhatə edirdi:

- Benzinin hər litri üçün yığımın 0,30 rend (0,02 dollar) artırılması;
- Alkoqollu içkilərə və tütün məmulatlarına tətbiq olunan aksiz vergisinin 7% artırılması;
- Kapitalın artımı üçün effektiv vergi dərəcəsinin fiziki şəxslər üçün 13,7%-dən 16,4%-dək, şirkətlər üçün isə 18,6%-dən 22,4%-dək artırılması.

Bundan əlavə, dəyəri 10 milyon renddən (747.268 dollar) artıq olan daşınmaz əmlakın satışı üçün rüsum 11%-dən 13%-ə qaldırılmışdır. Bu il aprelin 1-dən ölkədə şəkərə də vergi tətbiq olunur.

CAR-ın vergi sistemində aparılan bu dəyişikliklərə baxmayaraq, BVF təmsilçilərinin rəyinə əsasən, iqtisadi artım gözlənildiyindən xeylı aşağı olmuş, gəlirlərin «tərəddüd etməsi» isə vergi sahəsində görülən tədbirlərin təsirini azaltmışdır. Fond problemin həlli məqsədilə ƏDV-nin ehtiyatla artırılmasını, əmlak vergisinin yüksəldilməsini, eləcə də şirkətlərin öz gəlirlərini bilərəkdən az göstərməsinə qarşı mübarizənin gücləndirilməsini tövsiyə etmişdir.

# BVF: Litvada vergi yükü çox aşağıdır

Beynəlxalq Valyuta Fondu (BVF) Litvaya aid son hesabatında göstərmişdir ki, bu ölkə vergi inzibatçılığını təkmilləşdirmək və xüsusi vergi sxemlərini ləğv etmək yolu ilə tutulan vergilərin həcmini artırmalıdır. Məruzədə qeyd edilmişdir ki, Litvada vergi yığımının ÜDM-ə nisbəti Avropa ölkələri üzrə ən aşağı səviyyədədir. BVF-nin mövqeyinə görə, bunun əsas səbəbi vergi sisteminin kifayət qədər məhsuldar işləməməsi, eləcə də «kölgə iqtisadiyyatı»nın mövcudluğudur. Məruzədə qeyd edilmişdir ki, Litvada vergi dərəcələri həm korporasiyalar, həm varlı vətəndaşlar, həm də sıravi vətəndaşlar üçün xeyli aşağıdır. Hökumətə verilən başlıca tövsiyə bu olmuşdur ki, vergi siyasətinin əsas istiqamətləri müəyyənləşdirilməli və onların həyata keçirilməsi üçün konkret addımlar atılmalıdır.

# Vergi fırıldağı ilə mübarizə səmərəli nəticə verdi



Britaniyanın Vergi və Gömrük Yığımları İdarəsi (HMRC) bəyan etmişdir ki, vergidən yayınma hallarına və digər vergi fırıldaqçılığı əməllərinə qarşı görülən tədbirlər nəticəsində son maliyyə ilində dövlət büdcəsinə 29 milyard fund sterlinqdən artıq vəsait daxil olmuşdur. Fiskal orqanın illik hesabatında qeyd edilmişdir ki, maliyyə ili ərzində ölkə büdcəsinə 574,9 milyar fund sterlinq vergi daxilolmaları qeydə alınmışdır ki, bu da əvvəlki illə müqayisədə 38,1 milyard fund sterlinq çoxdur. Bununla da HMRC artıq 7 ildir ki, vergi yığımında öz rekordunu təzələyir. Son 6 ildə qurum vergi fırıldağı ilə məşğul olan 500-dən artıq iri təşkilatlanmış dəstəni məhkəmə məsuliyyətinə cəlb etmişdir.

2016-2017-ci illərdə təşkilatlanmış cinayət qruplarına qarşı təhqiqat işləri və digər tədbirlər nəticəsində büdcəyə 3,2 milyard fund sterlinq vəsait cəlb edilmişdir. Bundan əlavə, Britaniyanın fiskal orqanları vergi ilə bağlı 1200 cinayət işini məhkəməyə çıxararaq onların 83 faizini öz xeyrinə həll etmişdir ki, bu da dövlət xəzinəsinə 15 milyard fund sterlinq əlavə vəsait gətirmişdir. «Vergi ödəməkdən yayınmaya qarşı mübarizə apararaq cinayətkarların dövlət xəzinəsindən 29 milyard fund sterlinq vəsaiti oğurlamasının qarşısını almışıq. Bununla da hər ailə üçün büdcəyə 1000 fund sterlinq vəsait cəlb etmişik, - HMRC-nin baş icraçı direktoru və daimi katibi Con Tompson bildirmişdir. - Əldə edilmiş vəsaitlərin öz onlayn servislərimizin işinin yaxşılaşdırılmasına və vətəndaşların rifahı üçün işləyən xidmətlərə yönəldəcəyik».

# Fransa korporativ verginin dərəcəsini 25%-ə salacaq

Ölkənin yeni Baş naziri Eduard Filippin təqdim etdiyi iqtisadi proqrama əsasən, korporativ vergi də daxil olmaqla bir sıra vergilərin dərəcələri aşağı salınacaq, həmçinin ictimai ehtiyaclara yönəldilən xərclər azaldılacaq. Hökumətin bu proqramı Fransaya investisiya cəlb etmək və ölkənin kreditlərdən asılılığını zəiflətmək məqsədi daşıyır. Hazırda Fransanın dövlət borclarının ümumi məbləği 2,1 trilyon avroya çatmışdır ki, bu da faktiki olaraq ölkənin bir illik ümumi daxili məhsulu qədərdir. Baş nazirin sözlərinə görə, Fransa artıq yüksək vergilər tutulan və böyük ictimai xərcləri olan ölkə vəziyyətində qala bilməz.

Eduard Filipp gələcək beş il ərzində korporativ verginin dərəcəsinin 33 faizdən 25 faizə endirilməsini təklif etmişdir. Onun sözlərinə görə, bu addım Fransa ərazisində biznesi canlandırmaq və inkişaf etdirmək məqsədi daşıyır.

# Xəbər lenti

**Rusiya**nın sənaye və ticarət naziri Denis Manturov mətbuata açıqlamasında bildirmişdir ki, qiyməti 3 milyon rubldan (84.600 manat) baha olan avtomobillər üçün nəqliyyat vergisi artırıla bilər.

**İsveçrə**nin Federal Şurasından bildirilmişdir ki, bu ölkə ilə Fransa arasında vergi məlumatlarının mübadiləsi ilə bağlı bir sıra məsələlər artıq öz həllini tapmışdır. Qeyd olunmuşdur ki, hər iki ölkə hökumətləri tərəfindən sorğuların verilməsi ilə bağlı məsələlərə və son aylarda yaranmış bir sıra suallara aydınlıq gətirilmiş, qarşılıqlı həlli ilə bağlı razılıq əldə edilmişdir.

**Avstraliya** hökuməti rəqəmsal valyuta ilə bağlı mal və xidmətlər üçün vergi məsələləri (GST) barədə məsləhətləşmələrə başlamışdır.

**Vyetnam** hökumətinə ƏDV-ni unifikasiya etmək, aksiz vergisinin dərəcəsini qaldırmaq, eləcə də əmlak vergisi tətbiq etmək tövsiyə olunmuşdur. Beynəlxalq Valyuta Fondunun tövsiyəsində ekoloji vergilərin artırılması da var.

**Belarus**da müəssisələrin vergi müfəttişləri tərəfindən yoxlanılması dövrü beş il müəyyənləşdiriləcək ki, bu da ölkənin vergi sisteminin liberallaşdırılmasının əsas məqamlarından biri olacaq. Nəzarət sistemi də dəyişdiriləcək, vergi orqanlarına bütün zəruri informasiyalar məsafədən ötürüləcək.

**Hindistan** ölkə əhalisini bitkoinlərin satın alınmasına və istifadə olunmasına görə vergi ödəməyə məcbur edə bilər. Üzərində iş aparılan qanun layihəsi kriptovalyuta ilə bağlı fəaliyyətlərin tənzimlənməsi üçün hüquqi baza təşkil edəcək.

# Qeyri-leqal siqaret satışı büdcəyə baha başa gəlir

Keçən il Böyük Britaniyanın dövlət büdcəsi qeyri-leqal siqaret satışı ucbatından 1,84 milyard funt sterlinq itirmişdir. Əgər ölkəyə qeyri-qanuni və ya qaçaqmalçılıqla gətirilən siqaretlər rəsmi qaydada satılsa idi, göstərilən məbləğ qədər əlavə vergi yığılması mümkün ola bilərdi.

2016-cı ildə Böyük Britaniya sakinləri 5,5 milyard «qanunsuz siqaret» çəkmişlər ki, bu rəqəm Avropada ən yüksək göstəricilər sırasındadır. Buna baxmayaraq, hüquq-mühafizə orqanlarının fəaliyyəti nəticəsində ölkəyə qaçaq yolla gətirilən siqaretin kəmiyyəti 17 faiz azalmışdır. Böyük Britaniyaya qeyri-leqal siqaret əsasən Polşadan, Belarusdan, Rumıniyadan və Pakistandan daxil olur.

Hesablamalara əsasən, siqaret qaçaqmalçılığına görə Avropa ölkələri il ərzində ümumilikdə 10,2 milyard avro məbləğində vergi yığa bilməmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.XVIII əsr Azərbaycan şairi; 2.Xəzər rayonunda qəsəbə; 3.Azərbaycan dramatik teatr və kino aktyoru, Azərbaycan və Rusiyanın xalq artisti. «Uzaq sahillərdə» filmində Mehdi obrazını canlandıran aktyorun adı; 4.Yunan mifologiyasında Zevs və Okeanida Plutonun oğlu. Həmçinin, kimyəvi element (metal); 5.Əsasən oyun zamanı qələbə təsiri ilə yaranan yüksək emosiya, oyuna qeyri-adi maraq; 6.Bakı metrosunun Q.Qarayev stansiyasının keçmiş adı; 9.Qədim hind klassik musiqi növlərindən biri; 13.Gürcülərdə ənənəvi tünd spirtli içki; 15.Qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən qurum; 16.Respublikamızda rayon; 17. Ensiz, uzun, yaxud üçbucaq şəklində kiçik bayraq; 18.Makedoniyanın ən uzun, Yunanıstanın əsas çaylarından biri; 20.Mərakeşin paytaxtı; 21.Xəmirdən hazırlanan içlikli qənnadı məhsulu. **Soldan sağa:** 1.ABŞ-ın paytaxtı; 5.Türk mifologiyasında heyvan tanrısı; 7.Səhmdar cəmiyyətinin mənfəətinin hər il səhmdarlara ödənilən hissəsi; 8.Fransanın şimal-qərbində, Yuxarı Normandiya əyalətində şəhər; 10.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik topdan satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 11.Hər hansı sonuncu qurğunu və ya detalı, başqa birləşmə yolu olmadığından, əvvəlki ilə əlaqələndirmək üçün nəzərdə tutulmuş qurğu; 12.Nigeriyada şəhər; 14.XIX əsrdə yaşamış, şeirləri Avropada daha çox nəşr edilmiş Azərbaycan şairi; 19.Gürcüstan Respublikasının Bolnisi rayonunda azərbaycanlıların yaşadığı kənd; 21.Latın dilində «birinci» deməkdir.



*Amerika qitəsindəki iri çaylarda yaşayan timsah növü*

Sovet dövründə populyar siqaret markası; 22.İtaliyada şəhər; 23.İrqi ayrı-seçkiliyin ən kəskin forması. Bir qrup əhalinin yaşamaq üçün zəruri olan hər şeydən məhrum edilməsi. Soyqırımın bir növü; 24.Simli musiqi aləti; 25.Amerika qitəsindəki iri çaylarda yaşayan timsah növü.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sovxoz; 2.Ruletka; 3.Mason; 4.Odessa; 5.Radon; 6.Pitbul; 9.Evli; 13.Ajio; 15.Palmira; 16.Şilyan; 17.Omonim; 18.Diktat; 20.İrbis; 21.Raunq. **Soldan sağa:** 1.Stromboli; 5.Rep; 7.Velaskes *(Dieqo)*; 8.Ad·t; 10.Oktan; 11.Sivanmu; 12.Qazax; 14.Hippi; 19.İridium; 21.Ralli; 22.Yoba; 23.İnturist; 24.Nis; 25.İmmiqrant.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Fransada velosiped idmanı üzrə Avropa çempionatı

Fransanın Bordo şəhərində velosiped idmanının BMX növü üzrə Avropa çempionatına yekun vurulub. Qaliblərin mükafatlandırma mərasimində Avropa Velosipedçilər Birliyinin rəsmi nümayəndəsi kimi Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti, qurumun Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov da iştirak edib.




İyirmi altı ölkədən müxtəlif yaş qrupları üzrə 1750 idmançının iştirak etdiyi Avropa çempionatından əvvəl komanda rəhbərlərinin iştirakı ilə toplantı təşkil olunub. Tədbirdə çıxış edən Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov iştirakçı ölkələrin təmsilçilərini Birliyin Rəhbər Komitəsi adından salamlayaraq populyarlığı gündən-günə artan bu yarışların xüsusi önəm daşıdığını vurğulayıb və iştirakçılara uğurlar arzulayıb.

Tədbirdə çempionatın təşkili və BMX idmanının gələcək inkişaf perspektivləri ilə bağlı məsələlər müzakirə edilib. Sonra 2018-ci il avqust ayının 2-12 tarixlərində Böyük Britaniyanın Qlazqo şəhərində keçiriləcək idmanın 6 növü (o cümlədən velosiped idmanının 4 növü) üzrə Birləşmiş Avropa Çempionatları və 2018-ci il iyun ayının 5-9 tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində təşkil olunacaq BMX üzrə dünya çempionatı haqqında təqdimatlar keçirilib. Tədbir iştirakçılarına Azərbaycan mədəniyyəti, ölkəmizdə idmana göstərilən dövlət qayğısı, «Bakı-2015» ilk Avropa Oyunları, «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunları, Formula-1, «Tour d'Azerbaidjan» və digər böyük idman tədbirləri barədə məlumatları özündə əks etdirən videoçarx nümayiş etdirilib. Respublikamızda keçiriləcək dünya çempionatını səbrsizliklə gözlədiklərini deyən Avropa milli federasiyalarının nümayəndələri böyük məmnuniyyətlə Azərbaycana səfər edəcəklərini bildiriblər.

# İyirmi güləşçimiz ilk onluqda...

Dünya Güləş Birliyi 2017-ci ilin iyun ayında keçirilən yarışların nəticəsinə əsasən, güləş üzrə yeni reytinq siyahısını açıqlayıb.

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, ilk onluqda ümumilikdə 20 təmsilçimizin adı var.

Sərbəst güləşçilərin siyahısında Georgi Edişeraşvili, Mahir Əmiraslanov, Hacı Əliyev, Məhəmməd Müslümov, Cəbrayıl Həsənov, Murad Süleymanov, Aleksandr Qostiyev, Aslanbek Alborov və Cəmaləddin Məhəmmədovun adı ilk onluğa daxil edilib.

Qadın güləşçilərdən Mariya Stadnik, Nataliya Sinişin, Alyona Kolesnik və Tatyana Omelçenko da reytinq siyahısında ilk onluqda yer alıb.

Yunan-Roma güləşçilərinin onluğunda isə Murad Məmmədov, Rəsul Çunayev, Həsən Əliyev, Rafiq Hüseynov, İslam Abbasov, Orxan Nuriyev və Sabah Şəriətinin adlarını görmək mümkündür.

# Teymur Rəcəbovdan maksimum nəticə

İsveçrənin Cenevrə şəhərində keçirilən Beynəlxalq Şahmat Federasiyasının (FIDE) Qran-Pri yarışlarında 30 yaşlı qrossmeysterimiz Teymur Rəcəbov 9 turluq mübarizənin yekununda 6 xal əldə edərək qalib adını qazanıb. O, sonuncu turda ağ fiqurlarla oynayaraq ən yaxın izləyicisi, rusiyalı Yan Nepomnyaşi ilə heç-heçə etsə də, digər rusiyalı Aleksandr Qrişuk da holland Aniş Giri ilə xalı yarı bölüb. Nəticədə şahmatçımız ən yaxın izləyicilərini yarım xal üstələyərək liderliyini qoruyub.

Azərbaycanın digər təmsilçisi Şəhriyar Məmmədyarov isə 5 xalla 4 - 10-cu yerləri bölüşüb. Beləliklə, turnirin qalibi kimi, T.Rəcəbov 20 min avro, Ş.Məmmədyarov isə 11 min avro məbləğində mükafata sahib olub.

Qeyd edək ki, FIDE Qran-Prisi 4 seriyadan ibarətdir. 24 şahmatçı bunların yalnız 3-də çıxış edir. Artıq 3 seriyadan sonra aktivində 340 xal olan Şəhriyar Məmmədyarov 1-ci, 241,43 xala malik Teymur Rəcəbov isə 2-ci pillədə qərarlaşıb. 4-cü seriya 15-26 noyabrda İspaniyanın Palma de Malyorka şəhərində təşkil olunacaq. Məmmədyarov artıq 3 seriyaya qatıldığı üçün sonuncudan kənarda qalacaq, Rəcəbov isə iştirakçılar siyahısında olacaq. Reqlamentə əsasən, 4 seriyalıq FIDE Qran-Prisinin yekununda ilk 2 yeri tutan şahmatçılar İddiaçılar Turnirinə vəsiqə qazanırlar.

# Klassik avtomobillər Bakıda şütüyəcək

Azərbaycan Avtomobil Federasiyası (AAF) avqustun 26-da klassik avtomobillərin yürüş və sərgisini təşkil edəcək. Bununla əlaqədar olaraq, AAF klassik avtomobil sahiblərini tədbirdə iştiraka dəvət edir.

1980-ci ilədək istehsal olunan klassik avtomobillərin sahibləri 22 avqust saat 18:00-dək federasiyasda qeydiyyatdan keçə bilərlər. İştirak etmək istəyən şəxslərdən qeydiyyat üçün 012-505-60-03 və ya (050) 295-01-00 telefon nömrələrinə zəng etmək, eləcə də info@faa.az elektron poçt ünvanı ilə əlaqə saxlamaq xahiş olunur.

Qeydiyyatdan keçən avtomobil və onların sahibləri 26 avqust saat 15:30-da Heydər Əliyev Mərkəzinin qarşısında olmalıdır. Mərkəzin qarşısından start götürəcək avtomobillər Bakı şəhəri üzrə yürüş edəcək.

Yürüşdən sonra Mərkəzin parkında konsert və əyləncə proqramı təşkil olunacaq.

# Atletimiz Avropa çempionudur!




Polşanın Bıdqoş şəhərində 23 yaşadək idmançılar arasında atletika üzrə Avropa çempionatına yekun vurulub. Çempionatda üç təkanla tullanma yarışlarında ölkəmizi təmsil edən Nazim Babayev 17,18 metr nəticə ilə turnirin qalibi olub. Bu nəticə ilə atletimiz şəxsi rekordunu yeniləyib. Finlandiyalı Simo Lipsanen yarışı ikinci, Almaniya təmsilçisi Maks Heb isə üçüncü pillədə başa vurublar.

Avropada öz yaşıdları arasında birinci olan Nazim Babayev böyüklərdə yalnız İtaliya idmançısı Fabrizio Donatodan geri qalır. Xatırladaq ki, Nazim Babayev 2015-ci ildə İsveçin Eskilstuna şəhərində yeniyetmələr arasında Avropa çempionatının qalibi olub. O, həmçinin, bu il Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının da çempionudur.

mozaika

kosmos

## Günəşlə bağlı yeni məlumatlar



NASA-nın IRIS (Interface Region Imaging Spectrograph) elmi-tədqiqat aparatı günəş atmosferi haqqında yeni məlumatlar əldə edib. Agentliyin rəsmi saytının bu barədə yaydığı məlumatlara əsasən, günəş tacının səthə nisbətən daha çox qızdığı və bunun da «günəş küləyi» adlandırılan hissəciklərin fasiləsiz olaraq yaymasına səbəb olduğu məlum olub.

Aparat günəş atmosferində indiyə qədər məlum olan aşağı temperatura malik nayihələrdən 93000 °C daha aşağı temperatura malik nayihələr aşkara çıxarıb. Alimlər qısa zaman kəsiyində buraxdığı enerji həcminə görə bu nayihələri «günəş istilik bombaları» adlandırıblar. Gözlənilmədən istilik buraxan bu enerji mənbələrinin aşkara çıxarılması bütün günəş atmosferinin qızmasının mexanizmlərinin daha dərindən anlamağa yardım edəcək. Aparat, həmçinin, Günəşin bütün xromosferi - xarici təbəqəsi üzrə səpələnən və saniyədə 20 km hərəkət edən kiçik tornadolara bənzəyən çoxlu strukturları kəşf edib. Elm adamları bu tornadoların tacı enerji ilə qidalandıran mexanizmlə təmin etdiyi və plazma püskürmələrinin günəş küləyinin mənbəyi olduğu qənaətinə gəliblər.

Bunlarla yanaşı, yeni məlumatlar ulduzun atmosferdən necə enerji ötürdüyünə, həmçinin günəş aktivliyi dinamikliyinin kosmosda və Yerdəki texnoloji infrastrukturlara mümkün təsiri barədə bir çox məqamlara aydınlıq gətirəcək.

araşdırma

## Kim daha ucaboyludur...

Tədqiqatçılar dünyadakı 18 milyondan çox insanın boy ölçülərini araşdırıblar. Tədqiqatın nəticələri maraqlı faktlar ortaya çıxarıb. «Deutsche Welle» («Alman dalğası») agentliyinin yaydığı xəbərə görə, alman kişilərin boyu orta hesabla 179,9 santimetrdir. Bununla onlar dünyanın ən uzunboylu insanları arasında 11-ci yerdə qərarlaşırlar. Boyu orta hesabla 165,9 santimetr olan alman qadınlar isə 14-cü yerdədirlər. Bunu London İmperial Kollecinin alimləri dünyanın bütün qitələrindən olan 18,6 milyon iştirakçının boy ölçülərinə əsasən müəyyənləşdiriblər.



Yer planetinin ən ucaboylu insanları Niderland, Belçika, Estoniya, Latviya, Danimarka və Çexiya kimi Avropa ölkələrində yaşayırlar. Ən qısaboylular isə cənub-şərqi Asiya, Afrika, Mərkəzi və Cənubi Amerika sakinləridir. Dünyanın bir çox ölkələrində, məsələn, İran, İspaniya və İtaliyada insanlar 100 il bundan əvvəl indikindən daha ucaboylu idilər. Finlərin, yaponların və amerikanların isə əksinə, boy ölçüləri indikindən az olub. Son 40 ildə əksər ölkələrdə orta hesabla insanların boyu 5 santimetrədək azalıb. Bu tədqiqat daha bir faktın üstünü açıb. London İmperial Kollecinin əməkdaşı Məcid Ezzatinin sözlərinə görə, bu araşdırma son yüz il ərzində millətlərin sağlamlığı barədə məlumatı da aşkara çıxarır. Çünki bir insanın boyunun uzunluğu uşaq ikən onun yaxşı qidalanmasından və anasının hamiləlik zamanı sağlamlıq vəziyyətindən asılıdır. Buna görə də uşaqların həyata mümkün qədər yaxşı başlamaları üçün, ilk növbədə, onların qidalanması yaxşılaşdırılmalıdır.

sağlam həyat tərzi

## Nanənin faydaları



Sirr deyil ki, bir çox insanlar mədə xəstəliklərindən əziyyət çəkir. Belə xəstəliklərin aradan qaldırılması üçün müxtəlif kimyəvi dərmanlardan, fərqli metodlardan istifadə edilsə də, çox vaxt istənilən nəticə əldə etmək mümkün olmur.

Xalq təbabətində mədə ağrıları zamanı ən yaxşı bitki kimi nanənin adı çəkilir. Mütəxəssislər iştaha və qaz problemi olanlara, mədə ağrısından əziyyət çəkənlərə yabanı nanəni məsləhət görürlər. Nanə keçmiş dövrlərdə mədə ağrılarına qarşı dərman kimi istifadə edilib. Nanənin tərkibində uçucu yağ, tanen və acı maddə var. Bu bitkinin tərkibində olan faktorlar mədə problemi yaşayanlar üçün olduqca təsirlidir. Bununla yanaşı, nanənin kişilərdə güc artırma, ürək gücləndirmə, bədəndəki spazm ağrıları və ruhi-əsəbi narahatlıqların aradan qaldırmaq kimi faydaları da var.

**Təbii dərman olan nanənin istifadə qaydası:**

***1-2 çay qaşığı qurudulmuş çöl nanəsi yarpağının üzərinə 1 stəkan qaynar su tökülür və 10-15 dəqiqə dəmlənməyə qoyulur. Çay gündə üç dəfə içilə bilər. Çox içmək məsləhət deyil, çünki başgicəllənməyə səbəb olar. Böyrək problemi olanlar da nanədən uzaq durmalıdırlar.***

maraqlı

## Olimpiya məşəlini uçan avtomobil yandıracaq?..

Yaponiyanın avtomobil istehsalı sahəsində tanınmış «Toyota» şirkəti tezliklə uçan avtomobillərin istehsalına başlayacaq. Şirkət tərəfindən belə avtomobillərin arxa ötürücülərinin hazırlanması istiqamətində işin başlanıldığı bildirilir. Məlumata görə, uçan avtomobilin prototipi 2020-ci ilin yayında Tokioda keçiriləcək Yay Olimpiya Oyunları zamanı nümayiş olunacaq. Həmin avtomobilin Olimpiya məşəlini yandıracağı nəzərdə tutulur.

Şirkət nümayəndələrinin sözlərinə görə, «Toyota» uçan maşınlar ideyasının «ilkin mərhələdə həyata keçirilməsi»nə başlayıb. O da bildirilir ki, bu layihənin kommersiyalaşdırılması istiqamətində qərar qəbul edilməyib. Buna baxmayaraq, dünyanın ən böyük avtomobil istehsalçısı sayılan şirkətlərdən birinin belə bir layihədə iştirakı, bu istiqamətdə ciddi addımların atıldığını deməyə əsas verir. Bu, eyni zamanda, həmin layihənin nə dərəcədə rezal olması barədə müzakirələrin qızışmasına da şərait yaradır.



**Müdriklər deyib ki...**



*«Döyüşən məğlub ola bilər, döyüşməyən isə çoxdan məğlub olub».*

*Bertold Brext (1898-1956)*